

# Oqtay Şirəliyevlə bağlı böyük müəmma...

Yola salmaq üzrə olduğumuz həftə yerli KİV yazdı ki, Respublika Diaqnostika Mərkəzinin yeni qanuni təmsilçisinin adı müəyyənləşib. Belə ki, nizamnamə kapitalı 2 milyon 415 min 646 manat olan Respublika Diaqnostika Mərkəzinin qanuni təmsilçisi sabiq Səhiyyə naziri Şirəliyev Oqtay Kazım oğlu olub.

Səh.5


# UNİKAL

№06 (2091) 18 fevral 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Əbülfəs Qarayevə cinayət işi açıla bilər

## Eks-nazirə verilən rüşvətlərin bir qismi konkret məbləğlərlə üzə çıxdı; bəs bundan sonra nə baş verəcək?

Öncə kiçik xatırlatma: Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən 2020-ci ilin mayın 8-də məhkəmənin qərarı əsasında Mədəniyyət nazirinin o vaxtkı müavini Rafiq Bayramov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, vəzifə saxtakarlığı, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin həmin dövrdəki rəisi Sultanov Zakir İmran oğlu isə vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və mənimsəmə faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində istintaqa cəlb edildi. Sözügedən anti-korrupsiya əməliyyatından sonra həmin vaxt Mədəniyyət naziri vəzifəsində çalışan Əbülfəs Qarayevin də istintaqa cəlb ediləcəyi yönündə iddialar səslənir, mülahizələr irəli sürülürdü.

Səh.8



Səh.9

# Azərbaycan əks qüvvələrə qarşı prinsipial mövqe sərgiləyir

# "Biz bu ordunu kimə tapşırdığımızı bilməliyik"



Müdafiə Nazirinin sabiq müavini, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının sabiq komandanı, ehtiyatda olan general-mayor Altay Mehdiyev 2000-ci illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasında Yuxarı Buzqov yaşayış məntəqəsi yaxınlığındakı Buzqov yüksəkliyi...

Səh.4

# Səfər Əbiyevin adı biznes qalmaqalında...



Bu yaxınlarda yerli mətbuatda belə bir məlumat yayıldı ki, keçmiş müdafiə naziri Səfər Əbiyevin oğlu Ruslan Əbiyevə məxsus "Erebus" şirkəti tikinti sektorunda fəaliyyət göstərən "Royal Holding"ə qarşı məhkəmə iddiası qaldırıb.

Səh.6

# Tahir Kərimli "əjdaha" videosundan danışdı



Milli Məclisin deputatı Tahir Kərimli sosial şəbəkələrdə müzakirəyə səbəb olan videosu haqqında açıqlama verib. "Unikal" Baku TV-yə istinadən Tahir Kərimlinin fikirlərini təqdim edir: "Sosial şəbəkələrdən mənə yaxın adamlar, hamımız videonu götürdük. Amma artıq gec idi, yayılmışdı.

Səh.9

# Nura Suri: "Boşanmış qadının kişi ilə münasibətinə əxlaqsızlıq kimi baxırsınız"



***"Boşanmış qadının kişi ilə münasibətinə əxlaqsızlıq kimi baxan cəmiyyətimiz var. Deməli, kiminsə cibinə girmək, rüşvət almaq, şər-böhtan atmaq, qeybət etmək əxlaqsızlıq deyil, amma həyatında sevgi, ya seks varsa, əxlaqsızlıqdır. Beynim "error" verdi".***

Bu sözləri müöənni Nura Suri sosial şəbəkədə yazıb.

Sənətçi cəmiyyətdə tənqid edilən kişi-qadın münasibətlərindən bəhs edib: "Uşaq vaxtı ailəlikcə müharibə filmlərinə baxmaq normal idi, sevgi filmlərinə baxmaq anormal. Bütün problemlər elə o vaxtdan başlayıb. Adam öldürmək eyib deyil, adam sevmək eyıbdır. İnsanın suya, havaya, yeməyə olan ehtiyaclarından biri də sevgi və seksdir. İnsan belə yaradılıb. Yəni, sizin dünyaya gəlişiniz seksin, ya da sevginin nəticəsidir. Gedin bu fikirlə yaşayın indi.

Həyat tərzinizlə düşüncələriniz, düşüncələrinizlə danışdıqlarınız o qədər fərqlidir ki, özünüzü bir şəxsiyyət kimi formalaşdıra bilmirsiniz çoxunuz. Öz hisslərinizi dilə gətirməyə qorxursunuz, fikirlərinizlə sözləriniz uyuşmur. Öz acizliyinizi sizdən güclü insanları şərləməklə, söyməklə ört-basdır etməyə çalışırsınız. Kiminsə səviyyəsinə çatmağa yox, öz batağlığınıza salmağa çalışırsınız. Hətta yazdığım bu statusu belə dərk etmə qabiliyyətiniz yoxdur bəzilərinizin.

Özünüzü olduğunuz kimi təqdim etmək cəsarətiniz yoxdur. Hər kəsin yanında fərqli obrazlara girirsiniz. Özünüzü olmadığınız kimi göstərməyə can atırsınız. Hətta bəyənmədiyiniz geyimi belə dəb olduğuna görə alıb geyinə bilirsiniz. Bütün günü onun, bunun yatağını, şəxsi həyatını utanmadan müzakirə edirsiniz, adını da namus, qeyrət qoyaraq".

# "Kişi evdən çıxdısa, sənin deyil" - Xuraman

***"Qadın bəzən o qədər acıdil, təkəbbürlü olur, bəzən özü öz əlləri ilə yoldaşını itələyir. Qadınlar, kişilərin telefonunu axtarmayın, axtarsanız tapacaqsınız. Özünüzü sevin. Onsuz da ideal insan yoxdur. Düşünürəm, ailədə daha çox kişinin sözü üstün olmalıdır. Çünki kişinin hakimiyyətini də tapdalamaq olmaz. Artıq o ailədən ailə olmaz. Çalışın, əsas pərdəni aradan götürməyin. Elə idarə edin ki, nə şiş yansın, nə də kabab".***



Axşam.az xəbər verir ki, bu sözləri müğənni Xuraman Şuşalı MTV-yə açıqlamasında deyib. Həyat yoldaşı Elçin Məmmədovdan danışan sənətçi bunları əlavə edib:

"Yoldaşımla çox gözəl dostuq. Bizim ailə həyatımız dostluqdan başlayıb. Ona görə də biz bir-birimizə güzəştə gedirik. O məni çox anlayır. Əlbəttə ki, ailədə daha çox kişinin sözü üstün olmalıdır.

Qadında da günah olur. Bəzi kişilərin qanı xarabdır. Qadın nə etsə də, gözəl də olsa, kişi evdən çıxdısa, sənin deyil. Qadınlar ailə quranda bilməlidir ki, kiminlə ailə qursun. Qısqancdırsa, ömrünün sonuna kimi eyni qalacaq. Elə şeylər var ki, dəyişilmir. Qadın var ki, deyir ərim 40 yaşa kimi qısqandı, sonra yox. Belə hallar da var. Ya qadın qocaldı deyə qısqanmır, ya da başı başqasına qarışır. Mənim həyat yoldaşımda qısqanclıq yoxdur. Büruzə də vermir. Arada deyirəm ki, bu məni niyə qısqanmır? Çünki arxayındır. Mən çox qısqancam, görürəm ki, özümə ziyan verirəm. Deyir, kişinin qısqanmağı halal, qadında isə haramdır. Qadın qısqansa təkəbbür, kişidə isə qeyrətdən irəli gəlir".

Xuraman xanımlara məsləhət də verib: "Mən araşdırma etməyi sevirəm, zamanım olanda da psixoloq yanına gedirəm. Gərək axtarmayasan, axtarsan tapacaqsan. Ona görə özünüzü sevin, qiymət verin. Qarşı tərəfə də sevginizi elə miqdarda verin ki, nə o sizdən bezsin, nə də arxayın düşsün. Özünüzü, bir çiçək, sevdalı, baxımlı bilin. Ailədə pərdəni aradan götürməyin. Kişi də qadını o qədər sevməlidir ki, qadın ondan arxayın olmalıdır. İdeal insan yoxdur, axtarmayın. Həyat yoldaşınıza da ideal kimi baxanda çox pis əziyyət çəkəcəksiniz. Qadınlar, kişilərin telefonunu axtarmayın. Gələr qrupa şəkil düşər, evdə qırğın olar".



# Efirdə əlbəyaxa olan müğənnilər 5 il sonra barışdı

***Müğənnilər Cavad Rəcəbov və Qədir Məmmədov 5 ildən sonra barışıblar.***

Hadisə "Həmin Zaur" proqramında yaşanıb. Verilişin aparıcısı Zaur Kamal proqrama C.Rəcəbovu dəvət edib. O, ifaçılar arasında yaşanan mübahisədən söz açıb.

Zaur daha sonra Qədir Məmmədova zəng edərək onları barışdırıb. Müğənnilər efirdə danışaraq küsülülyə son qoyublar. "Allah məsələni böyüdən insanlara lənət etsin. Hər şeyi bilirəm. Bilirəm ki, Cavab elə insan deyil. Hər şey olur" deyə, Q.Məmmədov söyləyib.

Xatırladaq ki, 2014-cü ildə "Sevimli şou" verilişinin reklam fasiləsində hər iki müğənni əlbəyaxa olmuşdu.

# Namiq Kərimin onunla bağlı iddiasına cavab verdi

***Müğənni Kərim Abbasov meyxanaçı Namiq Qaraçuxurlunun biznesi olduğunu açıqlayıb.***



Sənətçi bu haqda "Səhər mərkəzi" proqramında deyib. O bildirib ki, Namiq alkoqol biznesi ilə məşğuldur.

"Eşitdiyimə görə... Əgər yalandırsa, üzr istəyirəm. Təzəlikcə eşitmişəm. Bilməyənlər də bilsin" deyən Kərimin efirdə mikrofonunu bağlayıblar. N.Qaraçuxurlu Axşam.az-a açıqlamasında məsələyə aydınlıq gətirib: "Qəti belə bir şey yoxdur. Heç ona oxşayan bir biznesim də yoxdur. Fikrə getdim ki, görəsən nəyi görüb elə bir söz deyə bilər?".

# Manaf Ağayevin Füzulidəki bu görüntüləri müzakirələrə səbəb oldu

***Müğənni Manaf Ağayev işğaldan azad edilən Füzuli şəhərinə yollanıb.***

Sənətçi həmin görüntüləri sosial şəbəkədə paylaşıb. O, Füzuliyə işğaldan azad olunandan sonra ilk dəfə getdiyini vurğulayıb: "Doğma Füzulimdə... Allah bütün qarabağlılara Qarabağımızın hər guşəsini görməyi nəsib etsin. Adam görəndə həm sevinir, həm kövrəlir".

M.Ağayevin bahalı avtomobillə Füzuliyə getməsi sosial şəbəkədə müzakirələrə səbəb olub. Müğənni daha sonra görüntüləri instaqramından silib.



# Baş nazir əmr verdi

## Dövlət Komitəsinin mülki işçilərinin maaşı artırıldı

***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşdirilən gömrük orqanları və təşkilatlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri təsdiq edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sisteminə daxil olan dövlət büdcəsi vəsaiti hesabına saxlanılmayan gömrük orqanları və təşkilatlarında mülki işçilərin aylıq vəzifə (tarif) maaşlarının məbləği bu Qərarın əlavəsində göstərilən aylıq vəzifə (tarif) maaşlarının məbləği səviyyəsində Dövlət Gömrük Komitəsi tərəfindən təsdiq edilir.

Bundan başqa, Maliyyə Nazirliyi Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşən qurumlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2022-ci ilin dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirməlidir.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşdirilən qurumlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri barədə müvafiq qərar qəbul edilməsi tövsiyə olunub.

Bu Qərar 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

# Çavuşoğlu Bayramova təşəkkür etdi

***"Dualarını bizdən əsirgəməyən azərbaycanlı qardaşlarıma da bu vəsilə ilə salam və sevgilərimi çatdırıram".***

"Unikal" xəbər verir ki, Çavuşoğlu ona şəfa diləklərini yetirdiyi üçün Azərbaycan XİN başçısına təşəkkürünü çatdırıb.

Qeyd edək ki, ötən gün Mövlud Çavuşoğlunun koronavirus testi pozitiv çıxıb, onun Azərbaycana planlaşdırılan səfəri təxirə salınıb.

# Daha üç məktəb əyani tədrisə qayıtdı

***Paytaxtdakı 60, 179 və 271 nömrəli tam orta məktəblərdə əyani dərslər bərpa edilib.***

Bu barədə Bakı Şəhər Təhsil İdarəsindən məlumat verilib. Bildirilib ki, adıçəkilən məktəblərin müəllim-şagird kontingenti üçün Gigiyena və Epidemiologiya Mərkəzinin rəyi əsasında müəyyənləşdirilmiş karantin müddəti başa çatıb.

Qeyd edək ki, təhsil müəssisələrində koronavirus infeksiyasına qarşı şagirdlərin və məktəbin pedaqoji heyətinin daha etibarlı qorunması üçün sanitar-epidemioloji vəziyyətdən irəli gələn tələblərə ciddi əməl olunur.

# Əbülfəs Qarayevə cinayət işi açıla bilər

## Eks-nazirə verilən rüşvətlərin bir qismi konkret məbləğlərlə üzə çıxdı; bəs bundan sonra nə baş verəcək?

***Öncə kiçik xatırlatma: Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən 2020-ci ilin mayın 8-də məhkəmənin qərarı əsasında Mədəniyyət nazirinin o vaxtkı müavini Rafiq Bayramov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, vəzifə saxtakarlığı, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin həmin dövrdəki rəisi Sultanov Zakir İmran oğlu isə vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və mənimsəmə faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində istintaqa cəlb edildi.***

Sözügedən anti-korrupsiya əməliyyatından sonra həmin vaxt Mədəniyyət naziri vəzifəsində çalışan Əbülfəs Qarayevin də istintaqa cəlb ediləcəyi yönündə iddialar səslənir, mülahizələr irəli sürülürdü. Hətta bir ara yerli KİV xəbər vermişdi ki, rəhbərlik etdiyi nazirlikdə irimiqyaslı korrupsiya və digər qanunazidd əməllər aşkarlandığı üçün kreslosunu itirən eks-nazir istintaq altındadır. Həmin vaxt bildirirdi ki, Ə.Qarayev ötən müddət ərzində bir neçə dəfə istintaqın suallarını cavablandırıb. Hətta o da deyilirdi ki, sabiq nazir Azərbaycanı tərk etmək istəyərkən sərhəddən qaytarılıb. Belə ki, Türkiyəyə getmək istəyən sabiq nazirə ölkədən çıxışına məhdudiyyət qoyulduğu deyilirdi. İddialara görə, Qarayev ona qoyulmuş "stop"un götürülməsi üçün istintaq orqanına müraciət edib. Eks-nazir Türkiyəyə həkim müayinəsinə getmək istədiyini və geri qayıtmaq niyyətinin olduğunu yazıb.

Əslində bütün bu iddiaların ortaya çıxmasında nə təsadüfi, nə də təəccüblü heç nə yoxdur. Reallıq burasındadır ki, keçmiş Mədəniyyət nazirinin cinayət məsuliyyətinə cəlb edilə biləcəyi cəmiyyətin əksər kəsiminin proqnozlaşdırdığı məsələ idi. Xüsusilə son zamanlar eks məmurlara qarşı antikorrupsiya əməliyyatları Qarayevin saxlanılmış işçiləri ilə bağlı davam edən istintaqa cəlb edilməsinin mümkünlüyünü gündəmə gətirir. İstintaqın sonunda sabiq nazirin özünün də cinayət məsuliyyətinə cəlb edilməsi sürpriz olmazdı. Əlbəttə, bu ehtimalın özünü doğruldub-doğrultmayacağını zaman göstərəcəkdi. Lakin bu da danılmaz faktdır ki, əgər həmin iddia gerçəkləşərsə nə cəmiyyətdə, nə də mətbuatda təəccüblə qarşılanmayacaqdı. Çünki hər kəs bilir ki, Mədəniyyət Nazirliyində yeyintilər dərin kök salıb, bu barədə təkzibolunmaz faktlar mövcuddur. Həmin faktların bir ucu isə məhz Əbülfəs müəllimə gedib çıxır.

Elə Zakir Sultanovun məhkəmədə verdiyi ifadələr də bunu təsdiqləyib. R.Bayramov istər istintaqa, istərsə də məhkəməyə verdiyi ifadələrində hər nə qədər eks-naziri qorumağa çalışsa da, eks-rəis necə deyərlər, "açıb sandığı töküb pambığı". Belə ki, təxminən on gün öncə Zakir Sultanovun ifadələri açıqlandı və həmin ifadələrdən aydın oldu ki, mənimsənilən pulların çoxunu o, sabiq mədəniyyət naziri Əbülfəs Qarayevə verib. Hətta məhkəmə dövründə də Z.Sultanov dəfələrlə Ə.Qarayevin məhkəməyə dəvət olunaraq ifadə verməsini tələb edirdi. Lakin onun vəsatətləri təmin olunmayıb.

Məhkəmədə təqsirləndirilən şəxs qismində ifadə verən Zakir Sultanov bildirib ki, 2006-cı ildə Əbülfəs Qarayevin təklifi ilə vəzifəyə gətirilib. O, Ə.Qarayevlə şəxsən 2005-ci ildə tanış olduğunu qeyd edib. Rəis olduğu dövrdə vəzifəsi tikinti aparılan layihələrə nəzarət funksiyasını həyata keçirmək olub. Layihələrin maliyyə hissəsinə qarışmayıb, həmin vəzifədə 2014-cü ilin dekabr ayına kimi işləyib. 2014-cü ilin dekabr ayında Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin İnkişafı və Bərpası üzrə Dövlət Xidməti yaranıb və həmin xidmətin rəisi vəzifəsinə təyin edilib: "2015-2020-ci illər ərzində Mədəniyyət Nazirliyində çoxlu sayda tender layihələri keçirilib. Rəis olduğum xidmətdə Mədəniyyət Nazirliyinin bir neçə layihəsinə nəzarət etmişəm. 2015-ci ildən sonra isə rəisi olduğum xidmətin adından da bir neçə şirkətlə tender müqavilələri bağlamışam. Nazirin tapşırığı ilə onun tanışı olan Şamxalın Mədəniyyət Nazirliyinin tenderində iştirakını və qalib gəlməsini təşkil etmişəm. Əvəzində isə Şamxalla aramızdakı razılığa əsasən onun hesabına müqavilədə nəzərdə tutulmuş məbləğ köçürüldükdən sonra 18 faiz ƏDV çıxılmaqla ümumi məbləğin 20 faizi "otkat" şəklində mənə geri qaytarılmalı idi.

2018-ci ildə bağlanmış müqavilə üzrə bizə geri qaytarılan pul ümumilikdə 900 000 manat idi. Həmin puldan 700 min manat hissəsini sabiq Mədəniyyət nazirinin göstərişi ilə ona xidməti otağında vermişəm, 200 min manat pulu özümə götürmüşəm. Bozalqanlı adına Aşıq Sənəti Dövlət Muzeyinin təmir-tikintisi ilə əlaqədar bağlanmış müqaviləyə əsasən 533 000 manat, həmçinin Tovuz rayonu Mədəniyyət evinin təmir-tikintisi ilə əlaqədar bağlanmış müqaviləyə əsasən 2020-ci ildə 218 min manat pul alınıb. Ümumilikdə alınan 751 min manat pulun 600 min manat hissəsini Əbülfəs Qarayevin göstərişi ilə xidməti otağında ona təhvil vermişəm. 151 min manat pulu isə özümə götürmüşəm. Masallı rayon Mədəniyyət evində təmir-tikinti işlərinin həyata keçirilməsi ilə bağlı layihədən 300 min manat pul qalıb. Həmin pulun 240 min manat hissəsini sabiq Mədəniyyət nazirinin göstərişi ilə ona vermişəm, 60 min manat pulu özümə götürmüşəm. Lənkəran rayonu Mirəhməd xanın evində təmir işlərinin keçirilməsi ilə əlaqədar 2011-ci ildə bağlanmış müqaviləyə 200 min manat pul alınıb. Həmin pulun da 160 min manatını sabiq Mədəniyyət nazirinə vermişəm. Bərdə şəhərində "Allah-Allah" türbəsinin təmir-bərpası ilə əlaqədar 2012-ci ildə bağlanmış müqaviləyə əsasən 5 il ərzində ümumilikdə 450 min manat pul alınıb. Həmin pulun da 360 min manatını Əbülfəs Qarayevə vermişəm, 90 min manatını isə özümə götürmüşəm.

Binəqədi rayonu Rəsulzadə qəsəbəsində yerləşən 11 nömrəli musiqi məktəbinin tikintisinin keçirilməsi ilə əlaqədar 80 min manat pul almışam, həmin puldan 60 min manatını Əbülfəs Qarayevə vermişəm. Bunlardan başqa daha bir böyük layihədən gələn 240 min manat pulun da 192 min manatını Əbülfəs Qarayevə təqdim etmişəm".



Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmünə əsasən 11 il müddətinə azadlıqdan məhrum edilən Sultanovun bu ifşaedici ifadələri Ə.Qarayev barəsində cinayət işinin açılma ehtimalını yenidən gündəmə gətirib. Hesab olunur ki, sabiq Mədəniyyət nazirinə verdiyi rüşvətləri bircə-bircə açıqlayan eks məmurun söylədikləri kifayət qədər ciddi faktlardır və hüquqi qiymətini almalıdır. Bu isə Qarayev barəsində ayrıca cinayət işinin başlanması nəticəsində mümkün ola bilər. Oxşar təcrübə sabiq Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovla bağlı yaşanmışdı. Müslümov vəzifəsini itirdikdən (2018-ci il) üç il sonra - 2021-ci ilin fevralında barəsindəki korrupsiya faktlarına görə həbs edilmişdi.

Həmin təcrübənin qarşıdakı zamanlarda ‚Qarayevə tətbiq olunması mümkündür və bu baş versə qətiyyən sürpriz sayılmayacaq...

**Sənan Mirzə**

# Azərbaycan əks qüvvələrə qarşı dayanıqlı prinsipial mövqe sərgiləyir

***Ermənistanın sərhəddə təxribatlarının davam etməsi, xüsusən də Rusiya sülhməramlılarının nəzarət etdiyi ərazilərdə baş verən olaylar, sülh prosesinin baş tutmasına ciddi əngəllər yaradır. Məsələ ondadır ki, bu vəziyyətdən həm Azərbaycanın regionda güclənməsini istəməyən müəyyən qüvvələr, eləcə də Rusiyadakı bəzi dairələr mövcud qeyri-müəyyən vəziyyətin davam etməsində maraqlıdırlar. Lakin Azərbaycan ən yüksək səviyyədə belə bir vəziyyətin uzun müddət davam edə bilməzliyini bəyan edib.***

Qeyd edək ki, son dövrlər baş verənlər həm Rusiya, həm də Ermənistan tərəfinin 10 noyabr, istərsə də ötən il yanvarın 11-də üzərinə götürdüyü öhdəliklərdən, məsuliyyətdən yayındığını açıq şəkildə nümayiş etdirir.



Prezident İlham Əliyev son Ağdam səfəri zamanı bir daha Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin vacibliyindən danışarkən beynəlxalq hüquq norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə bunun gerçəkləşdirilməsinin mümkünlüyünü qeyd etdi. Dövlət başçısı bu çıxışının davamında "Ancaq Azərbaycan xalqı Ermənistan dövlətinin törətdiyi bu vəhşiliyi unutmamalıdır" deməklə əslində İrəvana etimad etməyin özünə qəsdə bərabər olduğuna işarə etmiş oldu. Son proseslər də göstərir ki, İlham Əliyevin bu dedikləri tamamilə reallığı əks etdirir.

Bir neçə gün öncə Rusiya və Azərbaycan xarici işlər nazirlərinin arasında baş tutan telefon danışığı da yaranmış son vəziyyətin analiz edilməsi baxımından mühümdür. Bu barədə fikirlərini "Unikal"la bölüşən şərhçi Aqşin Kərimov deyib ki, Bayramov-Lavrov diplomatik müzakirələri iki informasiya fonunda diqqət çəkicidir: "Fevralın 16-da Bakı-Moskva diplomatik trafiki növbəti telefon danışığına şahidlik etdi, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Rusiyanın xarici işlər naziri Sergey Lavrov arasında telefon rabitəsi ilə danışıqlar baş tutdu. Bayramov-Lavrov diplomatik müzakirələri iki informasiya fonunda diqqət çəkir. Birinci, son günlər Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində erməni təxribatları güclənib. İkincisi isə Azərbaycan Baş Prokurorluğu sülhməramlıların xidmət etdiyi ərazilərdəki erməni separatçıların başçısı Arayik Arutyunyanın tezliklə istintaqa cəlb ediləcəyini açıqladı. Bu kontekstdə Azərbaycan və Rusiya xarici siyasət idarələrinin rəhbərlərinin 10 noyabr, 11 yanvar və 26 noyabr bəyanatlarının ciddi şəkildə icrasını müzakirə predmetinə gətirməsi maraq doğurur.

Yəqin ki, Arutyunyan və digər separatçı ünsürlərin həbsinə hazırlıqla bağlı Azərbaycanla Rusiya tərəfinin marağının uzlaşdırılması həyata keçirilir, detallar müəyyənləşdirilir, vaxt təyin edilir. Yeni reallıqdakı maraqlar isə mütləq şəkildə Türkiyənin strateji xətti ilə tutuşdurulmalıdır, elə buna görədir ki, həmin gün Lavrov Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə də müzakirələr aparıb.

Bundan əlavə, Azərbaycanla Türkiyə Ukrayna böhranına münasibətdə də müştərək strateji maraqlardan çıxış edirlər. Mümkündür ki, fevralın 16-dakı diplomatik təmaslarda Rusiya Ukrayna münaqişəsində Türkiyə və Azərbaycanın özünə dəstək verməsini istəyib, amma bu, mümkün deyil. Çünki nə Bakı, nə də Ankara özünə qarşı presedent yaradan addımlara getməyəcək. Qarşıdan isə diplomatik təmasların növbəti qrafiki gözlənilir, böyük ehtimal ki, XİN başçılarının səfərləri gerçəkləşəcək".

Müsahibimiz qeyd edib ki, Bayramov-Lavrov danışığı zamanı, Azərbaycanın ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunda sədrliyi çərçivəsində əməkdaşlıq da müzakirə mövzusunu təşkil edib:

"Rusiyanın həmin sədrlik dövründə Azərbaycandan gözləntisi budur ki, Avroatlantik məkanda bərabər və bölünməz təhlükəsizliyin təmin edilməsi məsələsində Moskvanın xeyrinə addımlar atsın. Azərbaycan Rusiyanı Cənubi Qafqazdakı yeni reallıqda sülhyaratma elementi kimi rolunu dəyərləndirir, amma bunu Qərbə qarşı yönələn siyasətə çevrilməsinə imkan vermir. Azərbaycan iki əks qütbdə dayanan güclərə bərabər məsafə saxlayır və ərazi bütövlüyü ilə bağlı məsələlərdə isə dayanıqlı prinsipial mövqe sərgiləyir.

Azərbaycan və Rusiya baş diplomatlarının danışığından çıxara biləcəyimiz nəticəyə gəlincə, deyə bilərik ki, Moskva Cənubi Qafqazın sabit məkana çevrilməsində maraqlıdır. Rusiya Prezidenti Vladimir Putinin üçtərəfli bəyanatlarda imzasının olması Moskvanın üzərinə məsuliyyət yükləyir. İndi Kreml bu məsuliyyətini dərk edib normallaşma prosesinə əhəmiyyətli töhfə verməlidir. Moskvanın Bakıya hansısa diktəedici tezislər təqdim etməsi isə çətindir, çünki Şuşa Bəyannaməsi ilə Türkiyə yeni reallıqda Azərbaycanın təhlükəsizliyinə zəmanətverici amilə çevrilib.

Qərbin də Azərbaycanda əhəmiyyətli investisiyaları mövcuddur, Ukrayna böhranında isə Azərbaycanın etibarlı enerji təminatçısı olduğunu böyük ümidlərlə dərk edir. Ancaq bu, Bakı-Moskva əlaqələrində gərilmə yaratmayacaq, Azərbaycan bərabərtərəfli xarici kursunu davam etdirəcək. Üstəgəl, sülhməramlıların müvəqqəti dislokasiya edildiyi Azərbaycan ərazilərində Bakının hüquqi tədbirlər görməsinə Moskvadan dəstək gələcək".

***Z.Məmmədli***

# Tahir Kərimli "əjdaha" videosundan danışdı

## Millət vəkili: "Mehdiyevi tənqid etsəm də, etikanı pozmamışam"



***Milli Məclisin deputatı Tahir Kərimli sosial şəbəkələrdə müzakirəyə səbəb olan videosu haqqında açıqlama verib.***

"Unikal" Baku TV-yə istinadən Tahir Kərimlinin fikirlərini təqdim edir: "Sosial şəbəkələrdən mənə yaxın adamlar, hamımız videonu götürdük. Amma artıq gec idi, yayılmışdı. Müəyyən saytlar və digərləri götürüb paylaşdılar. Mən istəməzdim. Düzünü deyim ki, telefonlara cavab vermirəm. Qonağımsınız, gəldiniz ona görə, qəbul etdim. Sovet dövründə, müstəqillik uğrunda mübarizədə, on illər içərisində bizim həyat tərzimiz belə olub ki, daim təqdiblər, hədələr şəraitində yaşamışıq. İsmayıllıdakı həyatımdə evdə hətta qadınlar olmağına baxmayaraq, atəş açmışdılar, iki nəfər... Heç tapa bilmədilər, uzun müddət izi də qaldı. Mən öyrəşmişəm bu cür hədələrə. Baxmayaraq ki, ondan əvvəl daha böyük hadisələr baş verib, amma deyirlər ki, bir damla olur, stəkanı daşıran.

Mən istəmədim ki, ailəm, uşağım bilsin. Bu sosial şəbəkələrdə, telefon vasitəsilə olur, dözürsən.

Yaxşı ki, dünən mənim oğlum məşqdən sonra icazə almışdı ki, dostumgildə qalacağam. Düzü, bunu ilk dəfə deyirəm, ailəm də bilmir, gələndə gördüm ki, qapının açar yerinə bükülmüş "zapiska" qoyulub. Düşündüm ki, bu supulu, işıqpulu qəbzidir. Baxdım ki, burada kiril əlifbası ilə yazılıb ki, səni udacaq əjdaha.... Adamın adı və Moskva ünvanı da yazılıb.

Mən axırıncı dəfə Milli Məclisdə çıxış edəndə məcbur oldum cərimələrlə bağlı, yol hərəkəti qaydaları, qida təhlükəsizliyi, qaz və digər məsələlər haqqında çıxış etdim. Onsuz da mənim ailəm həmişə narahatlıq içində yaşamağa öyrəşib.

İnsan bəzən həyatından bezir, ölüm istəyir. Ona görə mən təklikdə çıxış etdim. Amma sonradan bildilər. Evdə də narahat olurlar. Məni öldürməklə nə əldə edə biləcəksən? Televiziyadır, konkret deyə bilmərəm nə qədər belə misallar var. Adam canından bezir, amma məni öldürməklə heç nə əldə olunmayacaq. Əqidə yolu ilə dövlətimin millətimin gələcəyinə inanıram dedim. Təbii ki, mən məlumat verdim müəyyən yerə ki, belə təhdid edirlər.

Ramiz Mehdiyevi tənqid etsəm, istefaya çağırsam da, etikanı pozmamışam. Mən ümumiyyətlə, onun tərəfdarı olmamışam ki, vəzifədə üzünə deyə bilmədiyimi çıxandan sonra deyim. Ümumi vəziyyəti nəzərə alaraq çağırış etmişəm ki, belə daha yaxşı olar. Başqaları kimi aqressivlik nümayiş etdirməmişəm".

# "Rusiya Kiyevdən görüş barədə siqnal alıb" - Peskov



***Rusiya tərəfi Kiyevdən görüş barədə siqnal aldığını açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Kremlin mətbuat katibi Dmitri Peskov bildirib.

O vurğulayıb ki, Kreml Kiyevdən görüş barədə siqnal alsa da, lakin görüşün məqsədinə dair cavab almayıb.

Peskov Rusiya Prezidenti Vladimir Putinlə onun ukraynalı həmkarı Volodimir Zelenski arasında görüşün keçirilməsinin mümkünlüyü ilə bağlı sualı da şərh edib: "Kiyev dəfələrlə Putinlə Zelenski arasında görüş keçirilməsini təklif edib, lakin görüşün hansı məqsədlə keçirilməsini deməyib".

# Azərbaycan İranla uçuşları bərpa edir



***Azərbaycanın aşağıbüdcəli "Buta Airways" aviaşirkəti martın 4-dən etibarən Bakı və Tehran arasında koronavirus pandemiyası ilə əlaqədar dayandırılmış uçuşları bərpa edir.***

"Unikal" xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportundan Tehran hava limanına və əks istiqamətdə xüsusi reyslər həftədə bir dəfə - cümə günləri yerinə yetiriləcək.

Həmin uçuşlara biletləri aviaşirkətin rəsmi saytından ("Büdcə", "Standart" və "Super" tarifləri üzrə), həmçinin aviaşirkətin akkreditə olunmuş agentliklərindən (yalnız "Super" tarifi üzrə) əldə edə bilərsiniz. Biletlərin dəyəri 29 avrodan başlayır.

# Son sutkada koronavirusa yoluxanların sayı AÇIQLANDI

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 4 449 yeni yoluxma faktı qeydə alınıb, 9 372 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 30 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 764 202 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 713 324 nəfər müalicə olunaraq sağalıb, 9 157 nəfər vəfat edib. 41 721 nəfər aktiv xəstə sayını təşkil edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 14 558, bu günə qədər isə ümumilikdə 6 447 062 test icra olunub.

# AMEA Ümumi Yığıncağa HAZIRLAŞIR - Mehdiyevin məsələsi həll olunur

***Fevralın 19-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Ümumi Yığıncağının keçiriləcəyi barədə məlumat yayılıb.***

AMEA-nın Rəyasət Heyətinin Mətbuat xidmətinin rəhbəri Azadə Balayeva Modern.az-a açıqlamasında deyib ki, iclasın keçirilməsi barədə hələ qəti qərar verilməyib: "Ayın 19-da iclasın keçirilməsi planlaşdırılır, ancaq qəti qərar deyil. Hazırda iştirak edəcək şəxslərin sayı müəyyənləşdirilir. İclasın keçirilməsi bu saydan asılı olacaq. Say məlum olduqdan sonra iclasın keçirilməsi qətiləşəcək". AMEA prezidentliyinə namizəd olaraq akademik Arif Həşimovun ehtimal olunması sualına cavab olaraq, Mətbuat xidmətinin rəhbəri söyləyib ki, gündəliklə bağlı dəqiq məlumat yoxdur. AMEA-nın prezidenti Ramiz Mehdiyev fevralın 14-də istefa verdiyini bəyan edib. Nizamnaməyə görə, onun istefa ərizəsi AMEA-nın Ümumi Yığıncağında təsdiqlənməli, sonra dövlət başçısı tərəfindən müvafiq sərəncam verilməlidir.

## ELAN

10-VD-476 dövlət qeydiyyat nişanlı avtomobilə aid Zülfüqarov Hafiz Arif oğlunun adına olan texniki pasport, İbişov Ələddin Əziz oğluna, İbişov Elmir Ələddin oğluna məxsus etibarnamə itdiyi üçün etibarsız sayılır.

# Ombudsmandan Qaradağlı faciəsi ilə bağlı çağırış

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Qaradağlı faciəsinin 30-cü ildönümü ilə bağlı beynəlxalq ictimaiyyətə çağırış edib.***

"Unaikal" xəbər verir ki, çağırışda qeyd olunub ki, 1992-ci il fevralın 17-də Ermənistan silahlı qüvvələri Azərbaycanın Xocavənd rayonunun Qaradağlı kəndinə hərbi təcavüz etməklə mülki əhaliyə qarşı soyqırım cinayəti törədib.



"Bu qanlı cinayət nəticəsində Qaradağlı kəndi işğal olunaraq yandırılmış, 118 nəfər dinc sakin girov götürülmüş və onlardan 68 nəfəri amansızcasına qətlə yetirilmişdir. Ermənistanın hərbi-siyasi rəhbərliyinin azərbaycanlılara qarşı həyata keçirdiyi işğalçılıq və etnik təmizləmə siyasətinin davamı, Azərbaycan xalqına bəslədiyi nifrətin ifadəsi olan Qaradağlı soyqırımına beynəlxalq qurumlar tərəfindən hüquqi qiymət verilməli, sülh və bəşəriyyət əleyhinə yönəlmiş bu cinayət əməlini törədənlər beynəlxalq hüquqi məsuliyyətə cəlb edilməlidirlər" - çağırışda bildirilib.

# TƏBİB-in aparat rəhbəri işdən çıxarıldı

***"Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) aparat rəhbəri Gündüz Əbdülov vəzifəsindən azad edilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev əmr imzalayıb. TƏBİB-in Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, publik hüquqi şəxsin strukturunda aparılan dəyişikliyə əsasən aparat rəhbəri ştatı ləğv edilib.

***Hüseyn İsgəndərov***



# RİNN və Təhsil Nazirliyi arasında əməkdaşlığa dair protokol imzalanıb

***Fevralın 17-də Təhsil Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) arasında Niyyət Protokolunun imzalanma mərasimi keçirilib.***

RİNN-dən "Unikal"a verilən məlumata görə, Niyyət Protokolu təhsil naziri Emin Əmrullayev və rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev tərəfindən imzalanıb.

Protokolun imzalanmasında əsas məqsəd ümumi təhsil müəssisələri üçün rəqəmsallaşma, innovasiyalar və təhsilin inkişafına töhfə verəcək məsələlərə dair əməkdaşlığın həyata keçirilməsidir.

Bu çərçivədə ilk olaraq Sumqayıt şəhərində yerləşən "İstedad" liseyinin nəzdində "İnnovasiyalar" mərkəzi yaradılacaq. Mərkəzin yaradılması riyaziyyat, informatika, robotiks sahəsində




istedadlı şagirdlərin aşkar edilməsi, onların potensialının inkişaf etdirilməsi, informasiya texnologiyaları üzrə bacarıqlarının, kodlaşdırma qabiliyyətlərinin artırılması, eləcə də şagirdlərin yerli və beynəlxalq olimpiadalara, müsabiqələrə hazırlanmasının təşkili məqsədi daşıyır.

Mərasimdə çıxış edən təhsil naziri Emin Əmrullayev Niyyət Protokolunun imzalanmasını yüksək qiymətləndirib. Təhsil naziri Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən irəli sürülən bu təşəbbüsün istedadlı şagirdlərin bacarıqlarının aşkarlanaraq inkişaf etdirilməsi, innovativ təhsil layihələrinin həyata keçirilməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, cənab Prezident İlham Əliyevin müəyyən etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən ölkəmizdə güclü insan kapitalı və innovasiya məkanı yaradılmalıdır. Buna yalnız dəqiq elmlər, texnologiyalar, informasiya texnologiyaları üzrə bilikləri artırmaqla, bu sahədə mütəxəssislər yetişdirməklə nail ola bilərik.

İmzalanma mərasimindən sonra nazirlər liseydə yaradılmış şəraitlə tanış olub, şagirdlərlə görüşərək onları maraqlandıran suallar ətrafında müzakirələr aparıblar.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Fikrət Məmmədov Özbəkistan səfirilə görüşdü

***Fevralın 17-də ədliyyə naziri Fikrət Məmmədov Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov ilə görüşüb.***

Bu barədə Modern.az-a Ədliyyə Nazirliyindən məlumat verilib.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluğunu ifadə edən nazir tarixi köklərə malik bu əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin xüsusi rolunu vurğulayıb, Vətən müharibəsində dost Özbəkistanın dəstəyini qeyd edib. Zəngin müqavilə bazasına söykənən əlaqələrə və hüquqi əməkdaşlığın inkişafına toxunularaq, ötən il Daşkənd Hüquq Baharı Forumu çərçivəsində Ədliyyə nazirlikləri arasında yeni Əməkdaşlıq Proqramının imzalandığı bildirilib.

Qonaq ikitərəfli münasibətlərin müxtəlif, o cümlədən hüquqi sahədə uğurla inkişaf etdiyini vurğulayıb, Vətən müharibəsində erməni terroruna məruz qalmış dinc əhalinin sıx məskunlaşdığı şəhərlərə və işğaldan azad edilmiş ərazilərə diplomatik korpusun tərkibində səfər edərək, oradakı vəziyyətin canlı şahidi olduğunu bildirib, regionda sülhün bərpa olunmasına görə məmnunluğunu ifadə edib.

Söhbət zamanı imzalanmış Əməkdaşlıq Proqramının səmərəli implementasiyası, o cümlədən yaxşı təcrübələrin öyrənilməsi üzrə tədbirlər qeyd olunub, xüsusilə səfir qardaş Azərbaycanda vətəndaş məmnunluğu doğuran, korrupsiyanın və bürokratiyanın qarşısının alınmasına xidmət edən islahatlara Özbəkistanın böyük maraq göstərərək ölkəmizin ədliyyə sahəsindəki rəqəmsal innovasiyalarından, elektron reyestrlərindən və müasir notariat xidmətlərindən, habelə Azərbaycan brendi olan ASAN modelindən bəhrələndiyini və artıq ölkəsində tətbiq edildiyini vurğulayıb.

Eyni zamanda, ədliyyə orqanları arasında qarşılıqlı fəaliyyətin perspektivləri müzakirə olunaraq Azərbaycanın təcrübəsindən faydalanmaq üçün Özbəkistan yerli ədliyyə orqanlarının məsul işçilərinin ölkəmizdə praktiki təlimlər keçməsi barədə razılığa gəlinib.

B.Aşrafxanov Özbəkistan Ədliyyə Nazirliyinin yaranmasının 30 illiyinin ötən ay qeyd olunduğunu bildirərək, Azərbaycan təcrübəsindən bəhrələndiyinə və ikitərəfli əlaqələrin inkişafına görə nazirliyin yubiley xatirə nişanını F.Məmmədova təqdim edib.

Görüşdə həmçinin, dövlətlərimizin korrupsiyaya qarşı mübarizəyə böyük önəm verdiyi qeyd edilərək bu sahədə beynəlxalq əməkdaşlığa toxunulub. Ədliyyə naziri vitse-prezidenti olduğu Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının fəaliyyəti barədə məlumat verərək Özbəkistanı onun işində iştiraka dəvət edib və bu təklif məmnunluqla qarşılanıb.

Qonaq qarşılıqlı fəaliyyətin bundan sonra da genişləndirilməsinə hazır olduğunu söyləyib.

# Nazirlikdən sürücülərin aksiyası barədə rəsmi açıqlama

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Avtomibil Nəqliyyatı Xidməti TIR sürücülərinin aksiyası ilə bağlı açıqlama yayıb.***

Qurumdan bildirilib ki, 2021-ci il ilin iyun ayından etibarən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Avtomibil Nəqliyyatı Xidməti tərəfindən beynəlxalq daşıma icazələrinin bölüşdürülməsi prosesi yeni və şəffaf mexanizmin tətbiqi ilə həyata keçirilir:

"İcazələrin bölgüsü prosesində daşıyıcıların özlərinin də iştirakı təmin edilib. Bölgü nəticələri daşıyıcıların assosiasiyasının saytında dərc edilərək ictimailəşdirilir. Əvvəllər mövcud olan neqativ hallar tam və birmənalı dayandırılıb. Daşıyıcılar bölgü nəticəsində onlara ayrılmış icazə blanklarını Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən tam maneəsiz əldə edirlər. Məlumat üçün bildirək ki, "İcazə" blanklarının sayı məhdud olduğundan həmin blankların qabaqcadan real tələbatdan artıq sayda alınması digər yerli daşıyıcıların qanuni mənafelərinə zərər vurmaqla yanaşı, ümumilikdə beynəlxalq daşıma həyata keçirən Azərbaycan daşıyıcılarının xarici bazarlara çıxışını məhdudlaşdırmaqla bazardakı mövqelərinin zəifləməsinə də səbəb olur".



Bildirilib ki, bu istiqamətdə nazirlik tərəfindən Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası (ABADA) ilə əməkdaşlıq edilir və daşıyıcıların real tələbatı haqqında məlumatlar mübadilə edilir:

"Yalnız bir daşıyıcı-Rəmiş Cəfərov belə bölgüyə qarşı çıxaraq, özünə əlavə imtiyazlar tələb edib və dövlət orqanını təhdid etməklə məşğul olub.

Bundan əlavə, Xidmətin məsul əməkdaşları tərəfindən dəfələrlə qəbul olunaraq mövcud qanunvericilik barədə müvafiq izahatlar verilməsinə baxmayaraq, Rəmiş Cəfərov müxtəlif vaxtlarda şantaj və hədə-qorxu yolu ilə ehtimal olunan real tələbatdan artıq sayda "İcazə" blankının alınması məqsədilə ictimai qaydanı dəfələrlə pozaraq qanunsuz əməllərə yol vermiş, hərəkətləri ilə Xidmətin normal iş ahəngini pozmuşdur.

Sonuncu dəfə 27 dekabr 2021-ci il tarixində Rəmiş Cəfərov növbəti bir qanunsuz əməle yol verərək Xidmətin normal iş ahəngini pozub. Nəticədə xidmət tərəfindən Nərimanov rayon Polis İdarəsinə müraciət olunaraq polis əməkdaşlarının müdaxiləsindən sonra yük avtonəqliyyat vasitəsi Xidmətin inzibati binasının qarşısından götürülmüş və Rəmiş Cəfərov barəsində məhkəmənin qərarı ilə 15 sutka inzibati həbs qərarı çıxarılıb".

Eyni zamanda bildirilib ki, Cəfərov Rəmiş tərəfindən əvvəllər də bir sıra qanun pozuntularına yol verilib:

"Belə ki, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Bakı şəhəri Suraxanı rayon icra və probasiya şöbəsi Dövlət Avtomobil Nəqliyyatı Xidmətinə ünvanladığı 17 yanvar 2018-ci il tarixli məktubla lizinq müqaviləsi əsasında əldə etdiyi avtonəqliyyat vasitəsini qanunsuz yolla ölkədən çıxartdığına görə Rəmiş Cəfərova avtomobil nəqliyyatı ilə daşımalar üçün müvafiq icazələrin verilməsinin dayandırılmasını və verilmiş icazələrin etibarsız hesab edilməsinin təmin olunmasını xahiş edib.

Digər bir daşıyıcının 17 yanvar 2019-cu il tarixli məktubuna əsasən Rəmiş Cəfərov ona məxsus 99XE844/ 99ZA042 nömrəli nəqliyyat vasitəsi ilə 1 avqust 2018-ci ildə Türkiyə-Qazaxıstan marşrutunda beynəlxalq nümunəli əmtəənəqliyyat qaiməsində şirkətin kustar üsulla hazırlanmış saxta ştampından istifadə edərək Türkiyədən Qazaxıstana daşıdığı yaş salfetka yükünü Gürcüstanda tütün məhsulları ilə əvəz edərək Rusiya Federasiyasının ərazisinə keçmiş və orada yükü naməlum şəxslərə təhvil vermiş, nəticədə baş vermiş hadisəyə görə bu şirkətə Rusiya Federasiyasının gömrük orqanları tərəfindən yükün ünvana çatdırılmaması və qara siyahıya salınması barədə xəbərdarlıq edilərək onun işgüzar nüfuzuna xələl gətirilib.

Bu il Cəfərov Rəmiş tərəfindən Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən müvafiq icazələr alınmayıb. Onun tərəfindən xarici ölkədən yüklənmiş nəqliyyat vasitəsi olduğu bildirildikdə icazəsi olmadan bunu necə etdiyi sorğulanıb. Məsələyə aydınlıq gətirmək və dövlət orqanı ilə əməkdaşlıq etmək əvəzinə Cəfərov Rəmiş tərəfindən nəqliyyat vasitələri şəhərin mərkəzi prospektinin ikinci zolağında saxlanılıb.

Onu da bildirmək istəyirik ki, Rəmiş Cəfərovun beynəlxalq daşımalar sahəsində qüvvədə olan normativ hüquqi aktların tələblərini dəfələrlə pozmağa meyilli daşıyıcı olduğunu və Azərbaycan avtodaşıyıcılarının adına ləkə gətirdiyini nəzərə alaraq, 10 yanvar 2022-ci il tarixindən etibarən "R Group Azerbaijan" MMC ABADA üzvlüyündən çıxarılıb. Yəni milli daşıyıcılar onu öz sıralarından görmək istəmədiklərini açıq nümayiş etiriblər".

Qeyd edilib ki,"İcazə blankları" verilərkən daşıyıcıların həmin blanklara olan cari tələbatı araşdırılır və onlar tərəfindən əvvəlki dövrlərdə həyata keçirilmiş beynəlxalq daşımaların həcmi nəzərə alınır. Bu istiqamətdə işlər davam etdirilir və qısa müddətdə icazələrin bölgüsünün idarə edilməsi üçün xüsusi elektron proqram təminatı istifadəyə veriləcək. Məqsəd icazələrin bölgü prosesində ədalət prinsipini qorumaq və daşıyıcıların icazələrə çıxışını daha da asanlaşdırmaqdır.

# Səfər Mehdiyev Örl Litzenberqerlə görüşdü



***Bu gün Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin 2022-ci ildə İxraca Nəzarət və Sərhəd Təhlükəsizliyi (EXBS) proqramı çərçivəsində Mobil Aşkarlama Avadanlığı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə ianə edilib.***

"Unikal" xəbər verir ki, bu münasibətlə keçirilən tədbirdə Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin və Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevin rəhbərlik etdikləri nümayəndə heyətləri iştirak ediblər.

Göstərilən yardıma görə təşəkkürünü bildirən Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Azərbaycan və ABŞ arasındakı əlaqələrdən məmnunluqla bəhs edib, iki ölkənin gömrük orqanlarının da səmərəli və işgüzar münasibətlərinin bu əməkdaşlığa töhfə verdiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən məqsədyönlü islahatların gömrük işinin də çevik, səmərəli və şəffaf şəkildə qurulmasına münbit şərait yaratdığını bildirən Səfər Mehdiyev tətbiq edilən yeniliklər hesabına istər fiskal sahədə, istər hüquqpozmalarla mübarizədə, istərsə də gömrük əməliyyatlarının sadələşdirilməsi və sərhədkeçmə proseslərinin sürətləndirilməsi istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunu vurğulayıb.

Azərbaycan gömrüyünün beynəlxalq əməkdaşlığa xüsusi diqqət göstərdiyini bildirən DGK sədri əməkdaşların potensialının gücləndirilməsi, gömrük sahəsində tətbiq edilən yeni texnologiyaların əldə edilməsi, bilik və bacarıqların mənimsənilməsi, müasir təcrübə və yanaşmaların öyrənilməsi istiqamətində ABŞ tərəfindən göstərilən dəstəyə görə minnətdarlığını bildirib. Xüsusilə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə iki ölkənin gömrük qurumları arasındakı qarşılıqlı əlaqələrin ümumi işə mühüm töhfə verdiyini vurğulayan Komitə sədri əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini bildirib.

Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqer bu il Azərbaycan və ABŞ arasında diplomatik əlaqələrin qurulmasının otuz illiyinin tamam olduğunu qeyd edərək, ötən illər ərzində ölkələrimizin qarşılıqlı əməkdaşlığından məmnunluqla bəhs edib.

Son illər Azərbaycan gömrük xidmətində aparılan islahatların nəticəsini yüksək qiymətləndirən səfir iki il bundan öncə görüşünü xatırlayaraq məhz o dönəmdən bəri gömrük sistemində islahatların davamlı olaraq uğurla həyata keçirildiyini vurğulayıb və qeyd edib ki, gömrük sahəsində əldə etdiyiniz heyranedici nəticələrə görə sizi təbrik edirəm, Azərbaycan gömrük xidməti gördüyü bu işlərə görə qürur duya bilər.

ABŞ-ın Azərbaycanla birgə qanunsuz daşımaların qarşısını alınmasında uzun müddətli əməkdaşlığından da söz açan səfir Örl Litzenberqer bu gün edilən ianənin də münasibətlərin inkişafına, Azərbaycan və ABŞ-ın təhlükəsizliyinin gücləndirilməsinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirib.

Görüşdə, eyni zamanda birgə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Sonda tədbir iştirakçıları ABŞ Dövlət Departamentinin İxraca Nəzarət və Sərhəd Təhlükəsizliyi (EXBS) proqramı çərçivəsində təqdim etdiyi Mobil Aşkarlama Avadanlığına baxış keçirilib.

# Azərbaycan MiQ-29-ları havaya qaldırdı

***Döyüş hazırlığı planına uyğun olaraq Hərbi Hava Qüvvələrinin (HHQ) təlim uçuşları keçirilib.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, senariyə əsasən MiQ-29 tipli təyyarələrlə kiçik və orta hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra edilib.

Təlimlər zamanı pilotlar tərəfindən şərti düşmənin hava hücumundan müdafiə vasitələrindən yayınmaqla onun yerüstü hədəflərinin koordinatlarının təyin edilməsi və hava döyüşlərinin aparılması üzrə tapşırıqlar məşq olunub.

Təlimlərdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

# “Biz bu ordunu kimə tapşırdığımızı bilməliyik”

## Fazil Mustafa: “Ordunun taleyini büdcədən ayrılan vəsaiti mənimsəyən insanlar həll edəcəksə, bu bizim üçün böyük bir təhlükədir. İndidən bu təhlükənin qarşısını almalıyıq”

***Müdafiə Nazirinin sabiq müavini, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının sabiq komandanı, ehtiyatda olan general-mayor Altay Mehdiyev 2000-ci illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasında Yuxarı Buzqov yaşayış məntəqəsi yaxınlığındakı Buzqov yüksəkliyi də daxil olmaqla geniş ərazinin işğaldan azad edilməsi əməliyyatı barədə açıqlama verib. Altay Mehdiyev bu açıqlamasında müdafiə nazirinin sabiq birinci müavini - Silahlı Qüvvələrin keçmiş Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkovla bağlı sensasion iddialar irəli sürüb. ”Unikal” qəzetinə müsahibə verən Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa ilə söhbətə də elə bu mövzudan başladıq:***

***-Fazil bəy, son günlər Nəcməddin Sadıkovla bağlı müxtəlif iddialar irəli sürülür. Necə düşünürsünüz, ona qarşı cinayət işi açıla bilərmi?***

-Burada çox ciddi məsələdə ittiham olunan konkret adlar var. Buna görə də hüquq-mühafizə orqanları cinayət işi başlamalıdır. Konkret izahatlar alınmalıdır. Bu izahatlarda həqiqətən tutarlı əsaslar varsa, o zaman cinayət işi qaldırılmalı və konkret şəxsləri istintaqa cəlb etməlidirlər. Ola bilər ki, kimsə zərərçəkmiş, şahid kimi, kimsə də təqsirkar şəxs kimi cəlb olunsun. Bu məsələyə ciddi yanaşılmalıdır. Çünki bu dövlətin təhlükəsizliyi və hərbi cinayətlə bağlı məsələdir. Belə bir ittiham, iddia varsa, bunun həqiqiliyini yoxlamaq olduqca vacib və zəruridir. Bunun arxasında ölən əsgərimiz, şəhidimiz, qazimiz durur. Bu hamımızı maraqlandıran hadisədir. Mənim yaxınım və yaxud digəri bu cür xəyanətin qurbanı ola bilər. Bu kimi məsələləri diqqətdən kənarda saxlamaq olmaz. Bunun kifayət qədər ciddi siyasi tərəfi var. Bu tərəfini də araşdırmaq lazımdır.

***-Bununla yanaşı, Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən Müdafiə Nazirliyində iri maliyyə dələduzluğunun üstünün açılması ilə bağlı məlumat yayıldı. Bununla bağlı Silahlı Qüvvələrin yüksək rütbəli zabitləri tutulub...***

-Bu da çox ciddi məsələdir. Dövlət Təhlükəsizliyi Xidmətinin bu addımını yüksək qiymətləndirirəm. Diqqətdən kənarda heç bir yer olmamalıdır. Hansısa bir qapalı qurum adı ilə dövlət büdcəsi mənimsəniləcəksə, oğurluq baş verəcəksə, elə qapatmaq olmaz ki. Bu məsələyə də reaksiya verilməlidir. Belə fakt aşkarlanıbsa, istintaqda araşdırılmalı, müqəssirlər məhkəmə qarşısına çıxarılmalı və orada onların hərəkətlərinə hüquqi qiymət verilməlidir. Bu da bilavasitə bizim ordunun taleyi ilə bağlı məsələdir. Biz bu ordunu kimə tapşırdığımızı bilməliyik. Ordunun taleyini büdcədən ayrılan vəsaiti mənimsəyən insanlar həll edəcəksə, bu bizim üçün böyük bir təhlükədir. İndidən bu təhlükənin qarşısını almalıyıq.

***-Gəncə şəhərinin iki rayonunun (Kəpəz və Nizami) ləğv olunması məsələsi Milli Məclisin bu həftə keçirilən plenar iclasında 1-ci oxunuşdan keçdi. Bunun davamı olaraq digər rayon və şəhərlərin də icra hakimiyyətlərinin ləğv edilməsi və ya birləşdirilməsi gözlənilirmi?***

-Bizdə bütün islahatlarda bir yarımçıqlıq amili özünü göstərir. Elə bu məsələdə də belədir. Yəni, islahat aparılırsa, bu Bakını da əhatə etməlidir. Paytaxtın da 12 rayonu var. Buna nə ehtiyac var? Bu məsələyə baxmaq lazımdır. Sadələşdirmək, çevik idarəetmə gətirmək lazımdır. İnsanlar bürokratik əngəllərin əlində boğulurlar. Bir sənədi rahat ala bilmirlər. Bəzən bir sənəd üçün bir neçə qurumdan keçməli olurlar. Nə olsun ASAN-xidmət var? ASAN-xidmət də bir çox hallarda bu işi tam götürə bilmir. Çünki bürokratiyanın əhatə dairəsi kifayət qədər böyükdür. Bu baxımdan daha çevik hərəkətə ehtiyac var. Gəncədə iki rayon var idi. Oradan keçib gəlirdin, əsas qərar verən şəhər idi. Bu məsələ bu həddə gəlibsə, bütün rayonlarda bunu tətbiq etmək lazımdır. İdarəetmə sadələşməli, bələdiyyələrə səlahiyyət verilməlidir. Yol, nəqliyyat, kanalizasiya və s. bələdiyyənin sferasına daxil olan məsələlərdir. Bunu inkişaf etdirmək lazımdır ki, bu yük dövlətdən azalsın. İnsanlar bu istiqamətdə normal bir xidmət görsünlər. Bu kimi məsələlərdə ciddi bir islahatın tərəfdarıyam. İdarəetmə sadələşərsə, vətəndaş da çəkdiyi zülmlərin sayını heç olmasa azalmış görər. Bakının 12 rayonunun olmasına nə ehtiyac var? Bunu yarıbayarı azaltmaq olar ki, şəhərin idarəetməsi bir az çevikləşsin. Rayonların hüdudları da demək olar ki, bir-birinə qarışıb. Torpaq bir rayona, ev isə digər rayona aiddir. Heç bir bələdiyyənin əlində xəritə yoxdur. Bəs bu necə bələdiyyədir? Bələdiyyənin ərazisinin haradan başlayıb harada bitməsi ilə bağlı xəbəri yoxdur. Belə olarmı? Bunu hüquqi tənzimləməyə uyğunlaşdırmalıyıq. Buna dərəbəylik yanaşması ilə baxmaq olmaz. Bu məsələdə mütləq hüquqi tənzimləmə ortaya qoyulmalıdır.

***-Bələdiyyələrin sayının çox olması da tez-tez səsləndirilir. Onların azaldılması üçün hansı addımlar atılmalıdır?***

-Əlbəttə, görürsən kiçik bir kənddir, bələdiyyə yaradıblar, buna nə ehtiyac var? Bakıda böyük şəhər bələdiyyəsi yaratmaq lazımdır. Kiçik bir kəndin, qəsəbənin bələdiyyəsi nə deməkdir? Böyük edirsən ki, normal ərazisi olsun, pul qazana bilsin və vətəndaşa xidmət etsin. Kiçik olanda bu xidməti göstərə bilmir. Ona görə də bələdiyyələr yarıbayarı azaldılmalıdır. Bu qədər bələdiyyənin olmasına ehtiyac yoxdur.

***-Bu günlərdə pensiyalarda indeksləşdirmə aparıldı və müəyyən qədər artım oldu. Sizcə, bu artımlar bazardakı qiymətlərə uyğundurmu?***

-Pensiya, müavinət artımı çox olsa belə vətəndaşları razı salmayacaq. Biz daha çox vətəndaşa iş verməliyik. Bunun üçün iş adamını qorumalıyıq. Azərbaycanda iş adamı deyilən bir varlıq çox ağır vəziyyətdədir.Onlar o qədər böyük basqı altındadır ki, heç kim bir obyekti normal işlətmək səviyyəsində deyil. İş yeri açan şəxsə stimullaşdırıcı tədbirlər görülməli, onu mükafatlandırmaq, vergidən azad etmək lazımdır. Bəri başdan onun üzərinə yük qoyanda o iş yeri açmağa, işçi götürməyə maraqlı olmur. Qeyri-neft sektorunu yetərincə inkişaf etdirə bilməmişik. Burada da inkişaf neft sektoru ilə əlaqəlidir. Qeyri-neft sektorunu müstəqil şəkildə qaldıra bilmirik. Problemin kökü budur. Ona görə də fundamental bir dəyişikliyə getməliyik. Guya, sahibkarı yoxlama, iş yerlərinə müdaxilə yoxdur. Amma mahiyyətcə heç kim işləyə bilmir. Ya hər şey monopoliyadadır, ya da imtiyazlı şəxslərin əlindədir.



***-Siz “Müxalifət fəaliyyəti haqqında” qanunun qəbul olunmasını təklif etmisiz. Bununla bağlı ətraflı fikirlərinizi almaq istərdik...***

-Bu həm parlamentdə, həm də ondan kənarda müxalifət fəaliyyətinin çərçivəsinin dövlət tərəfindən tanınmasıdır. Müxalifəti necə görmək istəyirsiz? Buyurun, bunu qanunda əks etdirək. Müxalifətin protokolda, məclisdə yeri haradadır? Müxalifətin fraksiyası hanı? Müxalifətin 25 nəfər sayla fraksiya yaratması mümkündürmü? Xeyr. Bunun yollarını tapmaq lazımdır ki, sivil bir ölkə kimi gedək. Məsələn, Hesablama Palatasında nə üçün müxalifətin bir nəfər verdiyi namizəd olmasın? Nə üçün dövlətin müxtəlif komissiyalarında müxalifətin üzvləri olmasın? Bunların hamısı qanunda əks olunmalıdır. Qazaxıstanın yeni ”Siyasi partiyalar haqqında”qanununda bu müddəaların xeyli hissəsi öz əksini tapıb. Dövr artıq yeniləşib, biz bundan çəkinməli deyilik. Ölkədə güclü iqtidarın olması üçün, güclü müxalifətin olmasına ehtiyac var. Xaricdə yaşanan təlatümləri görürük. Xaotik bir hərəkətlər ölkəyə nə qədər ziyan vurur. Amma siyasi, mədəni bir üslubu formalaşdırsaq, artıq bütün məsələlər dialoq yolu ilə həll olunacaq. Müxalifət alternativ layihələrini verərlər, normal tənqidlərini edərlər, hakimiyyət də bundan faydalanar. Bu həm də ölkədə mədəni, elitar münasibətlərin formalaşmasına səbəb ola bilər. Dediyim bu nəticəni doğura biləcək bir layihədir.

***Anar Kəlbiyev***

# Oqtay Şirəliyevlə bağlı böyük müəmma...

## Eks-nazir öz adına keçirdiyi tibb müəssisəsinin baş direktorudur, ya yox?

***Yola salmaq üzrə olduğumuz həftə yerli KİV yazdı ki, Respublika Diaqnostika Mərkəzinin yeni qanuni təmsilçisinin adı müəyyənləşib. Belə ki, nizamnamə kapitalı 2 milyon 415 min 646 manat olan Respublika Diaqnostika Mərkəzinin qanuni təmsilçisi sabiq Səhiyyə naziri Şirəliyev Oqtay Kazım oğlu olub.***

Onu da qeyd edək ki, Respublika Diaqnostika Mərkəzinin saytında hələ də baş direktor Rəşid Vəzirov göstərilir. Halbuki bir müddət əvvəl Oqtay Şirəliyevin Respublika Diaqnostika Mərkəzinin baş direktoru təyin olunması ilə bağlı məlumat yayılmışdı.

Oqtay Şirəliyev kifayət qədər uzun müddət ərzində, bir az da konkretləşdirsək, 17 il boyunca, yəni 1988 - 2005-ci illərdə Respublika Diaqnostika Mərkəzinin direktoru olub. 20 oktyabr 2005-ci ildən 23 aprel 2021-ci ilə qədər isə Səhiyyə naziri vəzifəsini tutub.



Nazir vəzifəsindən kənarlaşdırıldıqdan sonra Şirəliyevdən xəbər yox idi. Onun Respublika Diaqnostika Mərkəzinin baş direktoru təyin olunması barədə məlumat da rəsmən təsdiqlənməmişdi. İndi isə keçmiş nazirin adıçəkilən tibb müəssisəsinin qanuni təmsilçisi olduğu aydınlaşıb. Bir az da konkretləşdirsək, Oqtay müəllim onu öz adına keçirib.

Qeyd edək ki, Respublika Diaqnostika Mərkəzi, peşəkar həkimlərə və tibb işçilərinə, geniş tibbi infrastrukturna və texnologiyaya malik, xəstə yönümlü, müasir bir tibb müəssisəsidir. Kompleks 1,6 hektarı əhatə edir, ictimai nəqliyyata və metroya yaxın ərazidə yerləşir. Mərkəz bir-biri ilə əlaqələndirilmiş Diaqnostika Mərkəzi, Ürək Mərkəzi, İnzibati bina,o cümlədən, Oftalmologiya Mərkəzi, Qan Bankı, Estetik Mərkəz, camaşırxana, aptek və oksigen təhcizatı təsisatı ilə əhatələndirilib. Kompleksin ərazisində xəstələrin keyfiyyətli istirahəti üçün qapalı qış parkı, açıq hava parkı, yeməkxana, qonaq otaqları mövcuddur. Bundan əlavə, xəstələrin, işçilərin və ziyarətçilərin rahatlığını təmin etmək məqsədilə 100 avtomobil tutumlu yeraltı və açıq avtomabil dayanacağı da yaradılıb.

Mərkəzin 10 əməliyyat otağı, 2 doğum otağı, reanimasiya, təcili yardım, yeni doğulan və uşaq bölməsi daxil olmaqda ümumilikdə 133 çarpayı fondu mövcuddur. Bu tibb müəssisəsi Terapiya, Kardiologiya, Nevrologiya, Endokrinologiya, Qulaq-burun-boğaz, Peşə sağlamlığı, İnvaziv kardiologiya, Oftalmologiya, Urologiya, Pediatriya, neonatologiya, Qastroenterologiya,Hepatologiya, Cərrahi xəstəliklər, Ginekologiya, Travmatologiya və Ortopediya, Reabilitasiya və Fizioterapiya kimi xidmətlərin daxil olduğu Ambulator bölmədən; Ürək-damar cərrahiyyəsi,Uroloji cərrahiyyə/ Böyrək Transplantologiyası, Neyrocərrahiyyə, Qulaq- Burun -Boğaz cərrahiyyəsi, Travmatologiya və Ortopediya, Ümumi cərrahiyyə, Mama-Ginekologiya,7\24 fəaliyyət göstərən Təcili yardım və Reanimasiya xidmətlərinin aparıldığı Stasionar bölmədən ibarətdir. Əlavə olaraq, xəstəliklərin ilkin diaqnostika və təqibi üçün yüksək keyfiyyətli diaqnostika bölməsində Laboratoriya, İnvaziv radiologiya,Radiologiya, o cümlədən, EKQ,Treadmill, Holter monitorinqi kimi kardioloji diaqnostika xidmətləri mövcuddur.

Bir sözlə, hazırda Şirəliyev kifayət qədər müasir tibb müəssisəsinin sahibidir. Mərkəzin tibbi xidmət qiymətləri isə Azərbaycan reallığında yüksək sayıla bilər. Bu da o deməkdir ki, müəssisə yetərincə böyük məbləğdə qazanc gətirmək iqtidarındadır.

2011-ci ildə ölkə başçısının iştirakı ilə Respublika Diaqnostika Mərkəzinin əsaslı təmir və yenidənqurmadan sonra açılışı olub. Açılışda məhz Şirəliyev bu tibb müəssisəsinin təmir və yenidənqurmadan sonrakı vəziyyəti barədə məlumat verib.

Əldə etdiyimiz məlumata görə, Oqtay müəllim sözügedən Mərkəzi öz adına keçirsə də, oraya qeyri-rəsmi rəhbərlik etməyi üstün tutub. Yəni tibb müəssisəsində baş direktor vəzifəsini Rəşid Vəzirov tutmağa davam edəcək, ek-nazir isə ümumi nəzarətlə kifayətlənəcək. Bunun səbəbi isə Şirəliyevin yaşıdır. Hazırda 72 yaşı olan Oqtay müəllim gərgin iş qrafiki ilə çalışmaq fikrində deyil.

Onu da deyək ki, klinikanın baş həkimi Könül Xəlilova da sabiq nazirin kadrlarındandır. Belə ki, Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasının direktoru olmuş Könül xanım məhz sabiq nazirin istəyi və sərəncamı ilə Respublika Diaqnostika Mərkəzinə baş həkim vəzifəsinə təyin olunub. Maraqlı orasıdır ki, o, klinikanın direktoru vəzifəsində çox qısa müddətdə çalışıb, daha doğrusu, bir neçə ay müddətində işləyib və həmin müddətdə çox böyük işlər görüb. Yəqin ki, orada etimadı artıqlaması ilə doğrultmasının nəticəsidir ki, Şirəliyev özü üçün doğma olan tibb müəssisəsinin baş həkimi vəzifəsinə belə bir təyinatı gerçəkləşdirib.

***Sənan Mirzə***

# Parlamentin xüsusi iclası keçiriləcək

***Gələn həftə Milli Məclisin xüsusi iclası keçiriləcək.***



”Unikal” xəbər verir ki, iclas Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunacaq.

İclasda xarici ölkələrin parlamentlərinə, beynəlxalq parlament təşkilatlarına 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğının soyqırımı cinayəti kimi tanınması ilə bağlı müraciət ünvanlanacaq.

# DGK-nin mülki işçilərinin maaşları artırıldı



***Nazirlər Kabineti “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşdirilən gömrük orqanları və təşkilatlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”ni təsdiq edib.***

”Unikal”ın xəbərinə görə, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Nazilər Kabinetinin “Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşdirilən gömrük orqanları və təşkilatlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi, “Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının məbləğləri”nin təsdiq edilməsi, “Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşların xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi”, Nazirlər Kabinetinin “Gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələr üzrə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” 2008-ci il 23 oktyabr tarixli 252-31 nömrəli və “Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və “Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” dəyişiklik edilib.

Bu Qərar 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

# DİN və Daxili Qoşunların hərbçilərinə "Müharibə veteranı" adı verildi

***Prezident İlham Əliyevin 29 dekabr 2021-ci il tarixli Sərəncamının icrası işləri çərçivəsində Daxili İşlər Nazirliyi, o cümlədən Nazirliyin Daxili Qoşunları tərəfindən də 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövr ərzində ölkəmizin ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş hərbi qulluqçularına “Müharibə veteranı” adı verilib.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏSMN) verilən xəbərə görə, Nazirlər Kabineti ilə razılaşdırılmış siyahı əsasında “Müharibə veteranı” adı verilmiş həmin şəxslərə dair məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Zəfər” altsistemınə daxil edilib.

Bundan sonra isə Nazirlik tərəfindən onlara Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü (80 manat) təyin edilib.

Təqaüd təyinatı həmin şəxslərə müraciətləri olmadan, heç bir sənəd təqdim edilmədən, e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib. Təyinat 2022-ci ilin 1 yanvarından rəsmiləşdirilib və həmin vaxtdan hesablanaraq ödənilir.

Bununla da artıq 5 qurum (Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, Ədliyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Daxili İşlər Nazirliyi) üzrə hərbi qulluqçulara “Müharibə veteranı” adı verilərək Prezident təqaüdü təyin olunub.

Hazırda digər qurumlar (Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və s.) üzrə də qeyd olunan adın verilməsi və təqaüd təyinatı üçün müvafiq işlər aparılır. Proses yaxın günlərdə yekunlaşacaq.

Müharibə veteranı kimi Prezidentin aylıq təqaüdü təyin edildiyi anda şəxsin adında olan telefon nömrəsinə bu barədə, habelə təqaüd kartını hansı bankdan əldə edəcəyinə dair SMS göndərilir.

# Şahin Mustafayev Aleksey Overçukla görüşdü



***Azərbaycanın Baş nazirinin müavini, Azərbaycan-Rusiya İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının Azərbaycan tərəfdən həmsədri Şahin Mustafayev ilə Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Komissiyanın Rusiya tərəfdən həmsədri Aleksey Overçuk arasında videokonfrans formatında görüş keçirilib.***

Nazirlər Kabinetindən "Unikal"a verilən məlumata görə, görüşdə hər iki ölkənin müvafiq dövlət strukturlarının nümayəndələri iştirak ediblər.

Görüş zamanı gündəlikdəki məsələlər, həmçinin iqtisadi-ticari, qarşılıqlı sərmayə qoyuluşu, sənaye, nəqliyyat-logistika, gömrük-sərhəd, neft-qaz, energetika, o cümlədən bərpa olunan enerji, kənd təsərrüfatı və qida təhlükəsizliyi, bank sahəsi, regionlararası əlaqələr, humanitar və digər sahələrdə əldə olunmuş uğurlar və əməkdaşlığın perspektivləri geniş müzakirə olunub.

Dövlət başçılarının ötən ilin noyabr ayında Soçidə keçirilmiş ikitərəfli görüşü Azərbaycan-Rusiya strateji tərəfdaşlığının növbəti təzahürü olduğu vurğulandı.

2022-ci ilin Azərbaycanla Rusiya arasında diplomatik əlaqələrin qurulmasının 30 ilinin tamam olması ilə əlamətdar olduğu bildirildi.

Hökumətlərarası Komissiyanın 20-ci yubiley iclasının cari ilin aprel-may aylarında Bakıda keçiriləcəyi səsləndirildi.

Koronavirus pandemiyasının neqativ təsirlərinə baxmayaraq Azərbaycan-Rusiya ticarət dövriyyəsinin 2021-ci ildə 12%-dən çox artdığı və 3,0 mlrd ABŞ dollarına çatdığı məmnunluqla qeyd edildi.

Fevralın 12-də "Aqroekspress" layihəsi çərçivəsində Azərbaycandan Rusiyaya ilk yük qatarının yola salınması iki ölkə arasında həyata keçirilən birgə fəaliyyətin uğurlu nəticəsi kimi dəyərləndirildi. Layihənin Azərbaycan-Rusiya iqtisadi-ticari əlaqələrinin genişləndirilməsinə, sahibkarlığın stimullaşdırılmasına töhfə verəcəyinə əminlik ifadə olundu.

Ölkələrimiz arasında əməkdaşlığın iqtisadi potensialının reallaşdırılmasında işgüzar missiyaların, eyni zamanda Rusiya İxrac Mərkəzinin Azərbaycan istiqamətində aktiv fəaliyyəti vurğulandı.

Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının işgüzar dairələr arasında əlaqələrin inkişafında və yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsində rolu yüksək qiymətləndirildi.

Görüşdə iki ölkə arasında qarşılıqlı investisiya qoyuluşlarının artmasına hərtərəfli dəstək verilməsinin davam etdiriləcəyi, o cümlədən ölkəmiz tərəfindən Rusiya iqtisadiyyatına 1,2 mlrd. ABŞ dollarından çox sərmayə qoyulduğu, Rusiya tərəfindən isə Azərbaycan iqtisadiyyatına 6 mlrd. ABŞ dollarından artıq investisiya yatırıldığı qeyd edildi.

Rusiya şirkətləri üçün Azərbaycan sənaye parklarında həyata keçirilən layihələrdə iştirak etmək üçün əlverişli imkanların olduğu, o cümlədən işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərmək üçün 14 şirkətin müraciət etdiyi diqqətə çatdırıldı.

Müxtəlif sənaye layihələri, o cümlədən avtomobil, dərman və tikinti materiallarının istehsalı, dəmir yolları, şərabçılıq, helikopter və avtomobil təmiri və s., uğurlu əməkdaşlığın təzahürü kimi qiymətləndirildi.

Kənd təsərrüfatı sahəsində əməkdaşlığın böyük əhəmiyyəti vurğulanaraq, Rusiyanın kənd təsərrüfatı üzrə Azərbaycanın ən böyük istehlakçısı olduğu bildirildi. Diqqətə çatdırıldı ki, 2021-ci ildə Azərbaycandan Rusiyaya meyvə-tərəvəz ixracının həcmi 6% artıb. Bu baxımdan Azərbaycandan Rusiyaya meyvə və tərəvəzin dəmiryolu vasitəsilə daşınmasına verilmiş icazənin müddətinin 2023-cü il yanvarın 1-nə qədər uzadılması yüksək qiymətləndirildi. Bununla yanaşı, Rusiyanın Azərbaycana mineral gübrələrin və yem bitkilərinin əsas tədarükçüsü olduğu və bu sahədə uğurlu əməkdaşlığın mövcudluğu qeyd edildi.

Nəqliyyat-logistika sahəsində əməkdaşlığın səviyyəsi yüksək dəyərləndirildi, iki ölkə arasında avtomobil daşımalarının həcminin ötən il 6,6%, tranzit daşımalarının isə 14,3% artdığı xüsusi vurğulandı.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyəti vurğulanaraq həm Azərbaycan, həm də Rusiya tərəfindən dəhliz çərçivəsində imkanların genişləndirilməsi üzərində fəal işin aparıldığı bildirildi. Nəqliyyat Dəhlizi üzrə vahid operator mexanizminin yaradılması perspektivləri müzakirə edildi.

Azərbaycan-Rusiya Regionlararası Forumun regionlararası əlaqələrin inkişafında mühüm platforma olduğu və 11-ci Forumun 2022-ci ilin 2-ci yarısında keçirilməsinin planlaşdırıldığı qeyd edildi.

Tərəflər Azərbaycan-Rusiya əlaqələrinin əməkdaşlığın bütün sahələrində möhkəmləndirilməsinə və genişləndirilməsinə yönəlmiş konstruktiv dialoqu davam etdirməyə hazır olduqlarını vurğuladı.

# Səfər Əbiyevin adı biznes qalmaqalında...

## Haqqında maraqlı iddiaların dolaşdığı keçmiş nazirin böyük oğlu ilə iş adamı arasında nə baş verib?

***Bu yaxınlarda yerli mətbuatda belə bir məlumat yayıldı ki, keçmiş müdafiə naziri Səfər Əbiyevin oğlu Ruslan Əbiyevə məxsus "Erebus" şirkəti tikinti sektorunda fəaliyyət göstərən "Royal Holding"ə qarşı məhkəmə iddiası qaldırıb.***

İddialara görə, Əbiyevin şirkəti "Royal Companies Corporation"u aralarında bağlanmış müqavilənin tələblərinə riayət etməməkdə günahlandırır. İddiaya Bakı Kommersiya Məhkəməsində baxılır.

Əbiyevin şirkəti qarşı tərəflə bağlanmış icarə müqaviləsinin ləğvini tələb edir. İddiada bildirilib ki, "Royal Companies"ə icarəyə verilmiş qeyri-yaşayış sahəsi boşaldılıb təhvil verilməlidir. Bundan başqa, "Erebus" şirkəti 2019-2022-ci illər üzrə yığılmış 198 min 240 manat icarə haqqını da tələb edir.

Xatırladaq ki, 1995-2013-cü illərdə müdafiə naziri olmuş Səfər Əbiyevin böyük oğlu Ruslan Əbiyev "Erebus" MMC-ni 2004-cü ildə təsis edib. Şirkət yarananda onun 22 yaşı olub və şirkətin nizamnamə kapitalı 20 manatdır. Bundan başqa R.Əbiyev bir müddət öncə Türkiyədə də hotel və turizm sahəsində böyük biznesə sahib olması ilə gündəmə gəlib.

Əbiyevin məhkəməyə verdiyi "Royal Companies Corporation" isə Azərbaycanda bir sıra hotel, istirahət mərkəzləri və aqrar komplekslərin tikinti layihələrinin icraçısıdır. Şirkətin baş direktoru hüquq elmləri namizədi, iş adamı Ramil Kərimlidir. O, 2020-ci ildə 32 saylı Suraxanı seçki dairəsindən deputatlığa namizəd olub.

"Unikal"ın araşdırmasına görə isə ötən il hazırda Çexiyada yaşadığı bildirilən keçmiş müdafiə nazirinin böyük oğlu Ruslan Əbiyevin də artıq 4 ildən çoxdur ki, Azərbaycanı tərk etdiyi və İstanbulda, məşhur Laləli prospektində otelçilik şirkətini idarə elədiyi barədə məlumat yayılmışdı. Həmin vaxt iddia edilirdi ki, R.Əbiyev İkiem Altın Otelcilik ve Turizm Ticaret Anonim Şirketində əsas payları 2015-ci ilin dekabr ayında Azərbaycan vətəndaşları İmran Əhməd oğlu Məmmədovdan və İlham İbrahimovdan satın alıb. Şirkətin İdarə Heyətinə sədr seçiləndən 4 ay sonra isə onun kapitalını 11 milyon lirədən 19 milyon lirəyə qaldırıb.

2020-ci ildə şirkətin 15,2 milyon lirə dəyərində səhmləri eks-nazirin oğluna məxsus olub. 2019-cu ilin sonunda İkiem Altın Otelcilik ve Turizm Ticaret A.Ş. Hayriyye Tüccari, 33 ünvanından yaxınlıqdakı Laləli, 43 ünvanına köçüb. Hər iki ünvanda çoxsaylı ticarət və xidmət obyektləri fəaliyyət göstərir. Türkiyənin rəsmi mənbələrinə görə, Ruslan Əbiyev hələ də Bakıdakı "Qızıl Şərq" hərbi şəhərciyindəki mənzilində qeydiyyatdadır.

O da maraqlıdır ki, adı ətrafında 200 min manatlıq qalmaqalın yarandığı "Erebus" MMC-ni yaradarkən sabiq nazir oğlunun cəmi 22 yaşı varmış. Şirkət Bakıda, Nəcəf bəy Vəzirov küçəsindəki mənzillərdən birində dövlət qeydiyyatına alınıb.

Onu da vurğulayaq ki, 2015-ci ilin əvvəlində yerli media Ruslanın vergi orqanlarında çalışdığını yazırdı. Lakin indi vergi xidmətində bu adda şəxs yoxdur. Bu da eks-nazir oğlunun Azərbaycanı tərk etdiyi və əsasən xaricdə yaşadığı yönündə iddiaları qüvvətləndirir.



Xatırladaq ki, general-polkovnik Səfər Əbiyevin hazırda 72 yaşı var. O, 1992-ci ilin fevralın 17-dən Azərbaycan Respublikası Silahlı Qüvvələrində xidmət edib. 1992-1995-ci illərdə Müdafiə Nazirliyi Baş Qərargah rəisinin birinci müavini, Baş Qərargah Rəisi - Müdafiə Nazirinin birinci müavini, Müdafiə Naziri vəzifəsinin icraçısı, Müdafiə Nazirinin müavini vəzifələrində çalışıb.

1995-ci ildə Azərbaycan Respublikasının Müdafiə Naziri təyin olunan Əbiyev 22 oktyabr 2013-cü ildə vəzifəsindən azad edilib. Bundan bir müddət sonra isə eks-nazirin Azərbaycanı tərk elədiyi və Çexiyaya köçdüyü, orada yaşamağa başladığı iddia edilib. Əbiyevin niyə Azərbaycandan kənarda və məhz Çexiyada yaşamağa üstünlük verməsinin səbəbləri bilinmir. Yalnız onun adıçəkilən ölkədə geniş biznesinin varlığı məlumdur.

Yeri gəlmişkən, bir neçə il əvvəl Azərbaycan mətbuatında sabiq müdafiə naziri Səfər müəllimin 3 min manatdan çox təqaüd aldığı barədə də məlumatlar yayılmışdı.

Əbiyevin uzun aradan sonrakı ilk fotosu bu ilin yanvarında yayılmışdı. Belə ki, Müdafiə Nazirliyinin keçmiş rəhbəri Eldar Sabiroğlu sabiq müdafiə naziri ilə olan fotosunu paylaşmışdı. O, Dədə Qorqud Fondu tərəfindən "Ədalətin qılıncı" ordeni ilə təltif olunduğunu bildirmişdi. Fotodan həmin ordeni mətbuat xidmətinin keçmiş rəhbərinin sinəsinə məhz S.Əbiyevin taxdığı görünürdü...

***Toğrul Əliyev***

# Elxan Məmmədov üçün həyəcanlı günlər...

## AFFA-nın baş katibi bu postundan uzaqlaşdırıla bilər

***Xəbər verildiyi kimi, Rövnəq Abdullayev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti vəzifəsindən azad edilərək, iqtisadiyyat nazirinin müavini təyin olunub. Bu qərardan sonra futbol ictimaiyyətində sual yaranıb: Rövnəq Abdullayev Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) prezidenti vəzifəsindən də gedəcəkmi?***

Məlumdur ki, Azərbaycanda AFFA da daxil olmaqla, az qala bütün idman federasiyalarının rəhbərləri müxtəlif iri məmurlardır. Abdullayevin SOCAR rəhbərliyindən uzaqlaşdırılmasının ardından ölkə futbolunun patronluğunda dəyişiklik olsa belə, bu həqiqət aktuallığını böyük ehtimalla qoruyacaq. Yəni AFFA prezidenti hər bir halda hansısa yüksək vəzifəli şəxs olacaq. Burada adı ön plana çıxan isə iqtisadiyyat naziri Mikayıl Cabbarovdur. Hazırda Mikayıl müəllim Azərbaycan Güləş Federasiyasının prezidentidir. Rövnəq Abdullayev SOCAR-ın prezidenti postundan kənarlaşdırılıb, Cabbarova müavin təyin edilibsə, Azərbaycan futbolu da niyə iqtisadiyyat nazirinə həvalə edilməsin?

Üstəlik, iqtisadiyyat naziri həm də Premyer Liqada mübarizə aparan "Sabah" klubu iqtisadiyyat nazirinin nəzarətindədir, o, bu komandanın oyunları, nəticələri ilə şəxsən maraqlanır. Yəni Mikayıl müəllim Azərbaycan futbolu üçün heç də yad isim deyil.

Onu da unutmayaq ki, bir müddət əvvəl SOCAR-ın nəzdində Müşahidə Şurası yaradılıb, həmin şuraya isə məhz Cabbarov sədr təyin olunub. Bu isə o deməkdir ki, SOCAR-ın AFFA-ya, ümumilikdə ölkə futboluna maliyyə dəstəyi davam edə bilər. Üstəlik, bu dəstəyin



məhz iqtisadiyyat nazirinin birbaşa nəzarəti altında həyata keçirilməsi məqsədəuyğundur.

Düzdür, o da tamamilə mümkündür ki, R.Abdullayev AFFA-nın rəhbəri postunda saxlanılsın. Bu bir o qədər də yüksək ehtimal kimi qiymətləndirilmir. Başqa bir zəif ehtimal isə federasiyanın baş katibi, icraçı vitse-prezident Elxan Məmmədovun həmin vəzifəyə gətirilməsidir. Məmmədovun fəaliyyəti futbol ictimaiyyəti tərəfindən birmənalı qiymətləndirilmir. Millimizin uğursuzluqlarından tutmuş ölkənin futbol çempionatlarının istənilən səviyyədə olmaması, klubların mütləq əksəriyyətinin acınacaqlı durumu məhz baş katibin məqbul sayılmayan iş prinsiplərinin nəticəsi kimi dəyərləndirilir. Belədə Elxan Məmmədovun AFFA prezidenti olması o qədər də ağlabatan sayılmır. 2007-ci ildən AFFA-nın baş katibi vəzifəsini daşıyan və Rövnəq Abdullayevin formal rəhbərliyi fonunda Azərbaycan futbolunu idarə edən birinci, hətta demək olar, yeganə şəxs sayılan Məmmədovla bağlı bir iddia da var.

Həmin iddiaya görə, əgər AFFA prezidenti dəyişərsə, baş katibin özü də əvəzlənəcək. Yəni E.Məmmədov hətta indiki postunu da qoruya bilməyəcək. Bu iddianın gerçəkləşib-gerçəkləşməyəcəyini, əlbəttə ki, zaman göstərəcək. Lakin belə bir qərar veriləcəyi təqdirdə bunun futbol ictimaiyyətinin mütləq kəsimi üçün toy-bayrama çevriləcəyini asanlıqla təxmin etmək mümkündür.

Onu da deyək ki, son zamanlar xüsusilə milli komandanın Avropa və dünya çempionatlarının seçmə mərhələlərindəki uğursuz çıxışından sonra E.Məmmədova istefa çağırışlarının edilməsi adiləşib. Ötən ilin noyabrında bu mövzu ilə bağlı danışan baş katib demişdi: "Əgər rəhbərlik istəsə və düşünülsə ki, mən getsəm, hər şey düzələcək, onda mən özüm də istefaya gedərəm".

E.Məmmədov qeyd eləmişdi ki, AFFA rəhbərliyinin bugünkü fəaliyyəti bəzi insanları qane etmir: "Çünki biz onların çirkin işlərinə mane oluruq. Ona görə milli komanda uduzan kimi bu kampaniyalar başlayır".

Məmmədovun belə reaksiyası anlaşılmazdır. Elə çıxır ki, azarkeşlər, futbol ictimaiyyətinin nümayəndələri millimizin hətta cırtan ölkələrin yığmalarına belə uduzmasını, məsələn, aylar öncə DÇ-2022-nin seçmə mərhələsi çərçivəsində səfərdə Avropanın ən zəiflərindən sayılan Lüksemburqa 1:2 hesabı ilə məğlub olmasını alqışlamalıdır. Eyni zamanda baş katibin "bəzi insanlar"ın söylədikləri kimi, onların "çirkin işlər"i dedikdə isə nəyi nəzərdə tutduğu da məlum deyil. Həm də ölkənin idman mətbuatı AFFA-nın özündə müəmmalı maliyyə işləri barədə mütəmadi yazdığı halda!..

***Gülayə***



# Hava necə olacaq? - PROQNOZ

***Fevralın 18-ə gözlənilən hava şəraiti açıqlanıb.***

Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi gündüz arabir güclənəcək.

Havanın temperaturu gecə 4-7º isti, gündüz 9-12º isti, Bakıda gecə 5-7º isti, gündüz 9-11º isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 758 mm civə sütununa enəcək. Nisbi rütubət 70-80 % olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz olacaq. Gecə və səhər saatlarında duman olacaq. Cənub-qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 2º şaxtadan 3º-dək, gündüz 9-14º isti, dağlarda gecə 5-10º şaxta, gündüz 0-5º isti olacaq.

# Metrostansiyanın yaxınlığında baş verən yanğın söndürüldü

***"Ulduz" metrostansiyasının yaxınlığında baş verən yanğın söndürülüb.***



Bu barədə "Unikal"a Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, bu gün saat 13:00 radələrində FHN-in "112" qaynar telefon xəttinə paytaxtın Nərimanov rayonunda "Ulduz" metrostansiyasının yaxınlığında yanğın baş verməsi barədə məlumat daxil olub. Məlumat qəbul edildəndən dərhal sonra FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin yanğından mühafizə bölmələri çağırış üzrə cəlb olunub.

Hadisə yerində əməliyyat şəraiti qiymətləndirilərkən müəyyən edilib ki, ümumi sahəsi 800 kv.m olan beton konstruksiyadan ibarət talvarın altında yerləşən yüngül metalların presləmə sexində tullantılar və bitum qalıqları yanır.

Yanğınsöndürənlər tərəfindən görülən operativ və təxirəsalınmaz tədbirlər sayəsində yanğın geniş əraziyə yayılmasının qarşısı alınaraq qısa müddətdə söndürülüb.

Yanğın nəticəsində ümumilikdə 50 kv.m sahədə metal tullantıları və bitum qalıqları yanıb.

Yanğından sex və dəzgahlar mühafizə olunub.

# Nazim İbrahimovun qardaşına hökm oxundu

***Dələduzluqda təqsirli bilinən Sahib İbrahimovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***

"Unikal"ın xəbərinə görə, hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Qeyd edək ki, Bakı şəhəri Xətai rayon məhkəməsinin "STS" şirkəti, "Sahil-D Kompani" MMC-nin təsisçisi, dələduzluq faktlarına görə əvvəllər məhkum edilmiş İbrahimov Sahib Hüseyn oğlunun yenidən oxşar xarakterli cinayət əməlləri törətməsinə dair xüsusi qərardadı əsasında 2021-ci ilin yanvar ayından başlayaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılmaqla Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Həmin özəl təşkilatların vəzifəli şəxsləri barəsində kommersiya bankından daxil olmuş materiallar da qeyd edilən cinayət işinə əlavə edilməklə iş üzrə zəruri istintaq hərəkətləri həyata keçirilib.

Cinayət işi üzrə aparılmış istintaq-əməliyyat tədbirləri ilə "STS" şirkəti və "Sahil-D Kompani" MMC-nin təsisçisi Sahib İbrahimovun qeyd edilən təşkilatların digər vəzifəli şəxsləri ilə qabaqcadan əlbir olaraq verdiyi tapşırıqlar əsa-



sında əvvəlcədən vəd edilmiş əmlakı alıcıya vermək niyyəti olmadan tikintisi aparılan binalarda qeyri-yaşayış sahələrinin satılması görüntüsünü yaratmaq məqsədi ilə yalan vəd verərək saxta sənədlərin tərtib edilməsi yolu ilə ayrı-ayrı vaxtlarda vətəndaşdan ümumilikdə 1 milyon 735 min manat məbləğində pul vəsaitini alaraq şəxsi ehtiyaclarına sərf etməsinə, rəsmi sənədlərə bilə-bilə yalan məlumatları daxil etməklə vəzifə saxtakarlığı törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, Sahib İbrahimovun xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlük əldə etmək məqsədilə fərdi sahibkar kimi tikinti işlərinin aparılması üçün xərclərin ödənilməsi adı ilə kommersiya bankından 300 min manat məbləğində pul vəsaitini ələ keçirib şəxsi ehtiyaclarına sərf edərək təkrarən dələduzluq etməsinə əsaslı şübhələr müəyyən edilib.

İş üzrə toplanmış kifayət qədər sübutlar əsasında, 17 aprel 2021-ci il tarixdə Sahib İbrahimova Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq), 308.2 (ağır nəticələrə səbəb olmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilib, sonuncu istintaq orqanının çağırışlarına gəlmədiyindən və müxtəlif üsullarla ibtidai istintaqın normal gedişinə mane olduğundan məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Onu da qeyd edək ki, S. İbrahimov Disaportla iş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovun və tanınmış iş adamı Hacı İbrahim Nehrəmlinin qardaşıdır.

# COVID testlərinin cavabı niyə gecikir? - RƏSMİ CAVAB



***Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, genetik Zakir Bayramov nazirliyin sosial şəbəkələrdəki hesablarına COVID-19 testləri ilə bağlı gələn sualları cavablandırıb.***

“Unikal” vətəndaşları maraqlandıran suallara verilən cavabları təqdim edir:

***- Ekspress testlərlə PZR-testlər arasındakı fərq nədir?***

- Ekspress və ya “rapid testlər” PZR testlərdən fərqli olaraq əsasən qandan edilir. Bu zaman qanda araşdırılan virusa yoluxub-yoluxmamağı və ya nə zamansa yoluxmanın olduğunu təyin edən, qanda mövcud olan (və ya nə zamansa mövcud olmuş) anticisimlər kömək olur.

***- Bəs anticisimlər nədir?***

- Anticisimlər (antigenlər), orqanizmə xarici mühitdən düşmüş istənilən yan cismə qarşı (bakteriya, virus, göbələk və s.) zamanla bədəndə yaranan “tanıdıcı” hissəciklərdir. Bu hissəciklər həmin “yad cisimləri” məhv edən immun sisteminin qoruyucu reaksiyalarından sonra yaranır və uzun müddət (bəzən isə ömürlük) “yaddaş-müdafiə” hissəcikləri kimi orqanizmdə qalmaqda davam edir. COVID-19 virusuna qarşı məhz həmin anticisimlər orqanizmdə maksimum 6 aya qədər qala bilir, sonra isə immun sistemi həmin virusları unutduğundan, orqanizm müdafiəsiz qalır. Anticisimlər ən azı iki həftədən sonra qanda aşkar edildiyindən, COVID-19 virusu tez aşkar etmək üçün bu optimal üsul hesab edilmir.

PZR isə eskpress testlərdən fərqli olaraq istənilən bioloji materialdan həyata keçirilə bilər. Bu zaman PZR test virusun genetik materialını tanıyır və ona görə də ən tez yoluxma zamanında belə ona qarşı həssaslıq göstərir. Bunun üçün virusun az miqdarı belə kifayət edir. PZR reaksiyası nəticəsində virusun genetik materialı dəfələrlə polimeraz reaksiyası sayəsində çoxalır və test onu asanlıqla görə bilir. Buna görə də PZR testi ən həssas metod hesab edilir.

***- Son zamanlar COVID testlərinin nəticələrində gecikmələr müşahidə olunur. Bilmək istərdik ki, testlərinin cavabı niyə gecikir?***

- Müraciət edən hər bir şəxsin nümunəsi PZR üsulu ilə işləmək üçün bir neçə mərhələdən keçir. İlk öncə nümunədən DNT-nin ekstraksiyası (ayrılması), sonra isə amplifikasiyası (aparatda oxunması) həyata keçirilir. Amplifikasiya mərhələsini həyata keçirmək üçün aparata 96 şəxsin nümunəsi yerləşdirilməlidir (məsələn, əgər test CFX96 BioRad cihazında aparılarsa). Əks halda az sayda nümunənin qoyulması zaman itkisindən kütləvi yoluxmalar zamanı məqsədəuyğun sayılmır. Belə ki, hər üç mərhələni nəzərə aldıqda (ekstraksiya, amplifikasiya və nümunələrin yığılaraq bir məntəqəyə göndərilməsi) PZR testin cavabları 96 nəfər üçün yalnız 3-4 saatdan sonra mümkün olur. Bunu nəzərə alaraq, 10-20 min testi həyata keçirmək üçün xeyli vaxt tələb olunur. Bu səbəbdən də son günlərdə testlərin cavablarının çıxmasında müəyyən gecikmələr müşahidə edilməkdədir.

***- Koronavirusun “Omicron” və ya digər ştammları necə müəyyən olunur?***

- İstənilən bir virusun PZR üsulu ilə təyini mümkün olunana qədər, virusun genetik identifikasiyası, yəni təyini (DNT və ya RNT materialı hansı ardıcıllığa malik olması) həyata keçirilir. Onların identifikasiyalarını hal-hazırda müasir aparatlar (sekvenatorlar) həyata keçirir. Həmin identifikasiya mərhələsinə sekvenasiya deyilir. Məhz sekvenasiya mərhələsindən sonra biz virusun hansı aminturşu ardıcıllığından ibarət olduğu müəyyən edilir. Eyni zamanda, onun əsas “daşıyıcı” hissəsini PZR reaksiyalarında “təyinedici praymerlər” kimi istifadə edirik.

Bildiyiniz kimi, dünyada koronavirusun yayılması artmaqadır ki, bu da virus mutasiyaları ilə bağlıdır. Ölkəmizdə epidemioloji vəziyyətin nəzarətdə saxlanılması üçün görülən tədbirlər çərçivəsində virusunun genetik variantlarına dair mütəmadi analizlər aparılır.

Koronavirus infeksiyasının yarada biləcəyi ağırlaşma hallarından qorunmağın ən effektiv yolu vaksinasiyadır. Bu, elmi araşdırmalarla sübut olunmuş faktdır. Ona görə də vətəndaşları sürətlə yayılan yeni ştamnan qorunmaq məqsədilə ikinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 5 ay sonra “buster” doza ilə peyvəndlənməyi tövsiyə edirəm.

# Yaşar Həsənov üçün təftiş qorxusu...

## İllər uzunu "Azəristilik"də on milyonlarla manat hara və necə xərclənib?

***Ötən həftə “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyində dəyişiklik baş verdi. Belə ki, Yaşar Məmmədəli oğlu Həsənov sədr vəzifəsindən azad edildi.***

Ölkə başçısının bununla bağlı sərəncamında o da qeyd olunmuşdu ki, qurumun sədri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini İlham Ata oğlu Mirzəliyevə həvalə edilsin.

Yaşar Həsənovun vəzifəsini itirməsində sürpriz heç nə yoxdur: onun rəhbərliyi dövründə ”Azəristilik”in fəaliyyəti ilə bağlı kifayət qədər tənqidlər səslənib. Ən əsası isə qurumun maliyyə durumu ilə bağlı müxtəlif ilginc iddialar ortaya çıxıb.



Xatırladaq ki, ”Azəristiliktəchizat” ölkə prezidentinin ”İstilik təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” 8 iyun 2005-ci il tarixli sərəncamı əsasında yaradılıb. Onun nizamnamə kapitalı 136,685 milyon manatdır.Səhmdar cəmiyyəti Bakıda və regionlarda yaşayış evlərini və binaları, təhsil, səhiyyə müəssisələrini və digər sosial təyinatlı obyektləri istiliklə təchiz edir.

Lakin dövlət şirkətinin fəaliyyəti, yuxarıda da vurğuladığımız kimi, davamlı şəkildə narazılıqlarla müşayiət olunub.Hesab edilir ki, bu ASC öz vəzifələrinin öhdəsindən gəlməkdə çətinlik çəkir. Bunu hər ilin payızında mənzillərin istiliklə təchizatının yubanmasından tutmuş bir çox digər məqamlarda aydın görürük.

Elə ”Azəristiliktəchizat”ın zərərinin bir ara 90 milyon manat kimi şok rəqəmlə ifadə olunması da bu narazılıqların, tənqidlərin boşuna olmadığını göstərirdi.

Bəs bu dövlət şirkəti necə zərərlə işləyə bilər? Axı Yaşar Həsənovun rəhbərliyi dövründə, ümumiyyətlə isə yarandığı vaxtdan - 2005-ci ildən bu yana ”Azəristilik” dövlətdən on milyonlarla manatlıq dotasiya alıb. Məsələn, 2006-2013-cü illərdə dövlət büdcəsindən bu quruma 110 milyon manat ayrılıb. Təkcə 2013-cü ildə adıçəkilən ASC-yə 25 milyon manat vəsait yönəlib. Onun 10,3 milyonu Bakı şəhərində qazanxanalarda, yaşayış evlərində və sosial obyektlərdə istilik təchizatı sistemlərinin təmir-bərpasına, 10 milyon manatı isə ”2011-2013-cü illərdə Bakı və onun qəsəbələrinin sosial iqtisadi inkişafına dair Dövlət Proqramı”nda nəzərdə tutulmuş təchizatın yaxşılaşdırılması tədbirlərinə, 4,7 milyon manatı Xətai rayonu, Əhmədli yaşayış məntəqələrində 10 ədəd istilik paylayıcı məntəqələrinin yenidən qurularaq məhəllə qazanxanalarına çevrilməsinə xərclənib.

Ümumiyyətlə, 2011-2016-cı illərdə şirkət dövlət büdcəsindən 123 milyon manat subsidiya əldə edib.

Sonrakı illərdə də ”Azəristiliktəchizat”a dövlət ayırmaları davam edib.

Üstəlik, nəzərə alsaq ki, istilik tarifləri də ötən illərdə bahalaşıb, o zaman bu ASC-nin zərərinin 90 milyona çatması, həmçinin borclarını qapada bilməməsi maraq və təəccüb doğururdu. Şübhə qalmır ki, sözügedən dövlət şirkətində idarətmə islahatlarının aparılması qaçılmazdır. Əks halda ”Azəristiliktəchizat”ın növbəti illərdəki zərəri daha da yüksələcəkdi.

Adıçəkilən ASC ətrafında yaranmış durum eyni zamanda ölkə başçısının bir müddət səsləndirdiyi fikirlər ətrafında daha dərindən düşünməli olduğumuzu göstərirdi. Prezident ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirilən müşavirədəki çıxışı zamanı demişdi ki, dövlət şirkətləri elə bil ki, sosializm iqtisadi modelində işləyir. ”Dövlət şirkətləri tərəfindən ödənilən vergilər hansı səviyyədədir? Əgər onların vergilərini, dövlət tərəfindən onlara verilən subsidiyaları və birbaşa vəsaitin qoyuluşunu götürsək, görərik ki, nə qədər böyük fərq var. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, dövlət şirkətləri bizim ölkəmizi, bizim iqtisadiyyatımızı aşağı aparır. Bunun başqa izahı ola bilməz” - deyə ölkə başçısı bəyan etmişdi.

”Azəristiliktəchizat”ın borc və zərəri ilə bağlı rəqəmlər bir daha göstərirdi ki, digər dövlət şirkətləri kimi, bu qurumda da durum qətiyyən ürəkaçan deyil, səbəb isə onun köhnəlmiş idarətmə sistemindən qaynaqlanır. Bu səbəbdən də ölkədə həyata keçirilən genişmiqyaslı islahatların bu qurumu da əhatə etməsi qaçılmaz idi. Nəhayət, sərəncam verildi və Yaşar Həsənov postundan uzaqlaşdırıldı. İndi bu ASC üçün yeni dönəmin başlayacağını proqnozlaşdırmaq olar. ”Azəristilik”in zərər və borc bataqlığından qurtulub-qurtulmayacağını isə zaman göstərəcək; lakin istisna edilmir ki, adıçəkilən dövlət şirkətində yeniləşmə və dəyişiklik vaxtilə ayrılan pulların illər uzunu hara, necə xərcləndiyinin təftişi ilə başlayacaq. Axı ”Azəristilik”də şəffaflığı təmin etməyin əsas yollarından biri də bu qurumun sabiq rəhbərinin sərəncamında olmuş on milyonlarla manatın qaranlıq aqibətini gün işığına çıxarmaqdır...

***Toğrul Əliyev***

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Media haqqında yeni qanun mətbuatda peşəkarlığı yüksəldəcək

## Baş redaktor: "Yeni qanun qeyri-peşəkar insanların mediaya axınının qarşısını alacaq"



***Son illər informasiya texnologiyaları sahəsində baş verən yeniliklər media sahəsində müəyyən tənzimləmələrin həyata keçirilməsi zərurətini ortaya çıxartdı. Ölkəmizdə "Kütləvi informasiya vasitələri haqqında" qanun bu sahədə hüquqi baza rolunu oynasa da, müasir dövrün çağırışlarına cavab verməsiyindən yeni qanunun qəbuluna ehtiyac yaratdı. Bu ilin fevral ayının 8-də yenidən hazırlanan "Media haqqında" qanun layihəsi Milli Məclisdə qəbul olundu. Prezident İlham Əliyev "Media haqqında" qanunu təsdiqlədi. Bəs görəsən "Media haqqında" qanun bu sahədəki boşluqları dolduracaqmı?***

Qanunun qəbulu söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsinə hansı töhvəni verəcək?

Milli.Az saytının baş redaktoru Elçin Alıoğlu "Unikal" qəzetinə açıqlamasında bildirib ki, "Media Haqqında Qanun"un qəbuluna çoxdan zərurət var idi. Onun sözlərinə görə, postsovet məkanında, həmçinin də Azərbaycanda media o qədər də yaxşı vəziyyətdə deyil: " Qeyri-peşəkarlıq, qərəzlilik, subyektivlik və saxtakarlıq çoxdur. Halbuki, cəmiyyət obyektiv təhlil, xəbərdə dürüstlük və yaranmış vəziyyətə çevik reaksiya gözləyir. Bəli, yeni qanun bəzi qələm "akulaları" işini çətinləşdirəcək. Amma bu insanlar, əslində, çoxdan qanun qarşısında cavab verməlidirlər".

Onun sözlərinə görə, digər problem, bəzi Azərbaycan KİV-lərinin xarici ölkələrdən maliyyələşməsidir: " Bəzi ölkələrdə buna qarşı tədbirlər görülüb. Məsələn, Rusiyada xarici agentlər haqqında qanun mövcuddur. Digər məsələlərlə yanaşı, "Media Haqqında Qanun" yerli medianın kənardan maliyyələşməsinin qarşısını almaq üçün vacibdir".

Onun sözlərinə görə, bu gün media reyestrini "Şindler siyahısı" adlandıranlar və ora düşmədən jurnalistikayla məşğul olmağın mümkünsüzlüyündən danışanlar da var. Amma əslində isə bu belə deyil. Alıoğlunun fikrincə, media reyestri jurnalistlərə əmək münasibətlərini qanuniləşdirməyə imkan verəcək: " "Mən şadam ki, Azərbaycanda milli media tənzimləyicisinin formalaşmasına başlanılır. Bu heç də senzura deyil. Sadəcə olaraq, hər bir insan bilməlidir ki, dediyi sözə görə təkcə mənəvi deyil, həm də hüquqi məsuliyyət daşıyır".

"525-ci" qəzetin baş redaktoru Rəşad Məcid isə "Unikal" qəzetinə açıqlamasında bildirib ki, bu qanunun təsdiqi media sahəsində inkişafa səbəb olacaq mühüm sənəddir. Onun sözlərinə görə, MEDİA Agentliyi bu qanun üzərində işləyib: "Qanunun müzakirəsi həm redaksiyalarda, həmçinin də Milli Məclisdə media rəhbərlərinin iştirakı ilə aparılıb. Bu qanun geniş ictimai müzakirəyə səbəb oldu. Qanun medianın inkişafında mühüm rol oynayacaq. Biz yeni medianın tənzimlənməsindən danışırdıq. Yeni qanunla bu məsələ də əhatə edildi. Audiovizual, onlayn, çap mediası qanunda öz əksini tapıb. Düşünürəm ki, dövlətin jurnalist fəaliyyətinə yaratdığı imkanlar, güzəştlər mediada peşəkarlığı artıracaq. Eyni zamanda yeni qanun qeyri-peşəkar insanların mediaya axınının qarşısını alacaq".

R. Məcid deyir ki, jurnalistlərin güzəştli ipoteka şərtlərindən istifadəsinə imkan yaradılması isə həm jurnalistlərin sosial vəziyyətinə, həmçinin də onların peşəkarlığına müsbət təsir edəcək.

Xatırladaq ki, Azərbaycanda jurnalistlər də güzəştli ipoteka ilə mənzil əldə edə biləcəklər.

Bu barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında Prezidentin Fərmanında qeyd edilir.

Fərmana görə, "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"na 3.2.1-ci yarımbəndə əlavə edilir.

Yeni əlavəyə görə, gənc ailənin üzvü olan, azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malikdirlər.

Bu yeniliyə qədər şəhid ailəsinin üzvü (əri/arvadı, övladları), Milli Qəhrəman (özü, əri/arvadı, övladları), məcburi köçkün və ya ona bərabər tutulan şəxslər, ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxslər, ən azı 5 il dövlət ümumtəhsil məktəbində müəllim işləyən şəxslər, fəlsəfə doktoru elmi dərəcəsi olan şəxslər və idman sahəsində xüsusi xidmətləri olan şəxs (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçısı (I, II və ya III yer) olan şəxslər güzəştli ipotekada yararlanmaq hüququ var idi.

Bundan əlavə, həmin maddəyə 3.2.8-ci yarımbənd əlavə edilib. Bu bənddə göstərilir ki, ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər də güzəştli ipoteka şərtlərindən yararlana bilər.

Qaydaya əsasən, Fondun Himayəçilik Şurası tərəfindən kredit, o cümlədən güzəştli ipoteka krediti üzrə illik faiz dərəcələri müəyyən olunana qədər, kredit üzrə illik faiz dərəcəsi 8 faizdən, güzəştli ipoteka krediti üzrə isə 4 faizdən çox olmamalıdır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Elnur Hüseynquluyev mətbuat katibi təyin olundu

***Azərbaycan Respublikası Dövlət Sığorta Şirkətində yeni təyinat olub.***

Şirkətin Marketinq və İctimaiyyətlə Əlaqələr şöbəsindən verilən məlumata görə, rəhbərliyin müvafiq əmri ilə Elnur Hüseynquluyev Azərbaycan Respublikası Dövlət Sığorta Şirkətinin Mətbuat katibi vəzifəsinə təyinat alıb.

Qeyd edək ki, FED.az biznes maliyyə portalının təsisçisi olan E.Hüseynquluyev ölkədə fəaliyyət göstərən bir sıra sığorta şirkətlərində PR menecer və tanınmış mətbuat orqanında maliyyə müxbiri vəzifələrində çalışıb.

# "Yüksəliş" müsabiqəsinə qeydiyyat başladı

***Bu gübdən ikinci "Yüksəliş" müsabiqəsinin qeydiyyat mərhələsinə start verilibi. 21-51 yaş arasında olan, ali təhsilli, ən azı 2 il idarəçilik təcrübəsinə malik Azərbaycan Respublikasının vətəndaşları qeydiyyatdan keçərək müsabiqədə iştirak edə bilər.***

"Unikal" xəbər verir ki, qeydiyyat "Yüksəliş" müsabiqəsinin saytı (www.yukselish.az) vasitəsilə həyata keçirilir və təqribən 1 ay davam edəcək. Müsabiqə Qeydiyyat, Onlayn , Əyani , Yarımfinal və Finaldan ibarət olmaqla 5 mərhələdən ibarətdir. Qeydiyyat mərhələsində müsabiqədə iştirak etmək hüququna malik olan şəxslər www.yukselish.az rəsmi internet səhifəsində Şəxsi Kabinet yaratmaqla və qeydiyyat formasını (anketi) doldurmaqla qeydiyyatdan keçə bilərlər.

Müsabiqənin yekunlarına əsasən, "Yüksəliş" qalibi elan olunan 20 iştirakçı bir illik İdarəçi rəhbərlərin iştirakı ilə mentorluq proqramına qoşulma, və fərdi inkişaf üçün 20 min manat pul mükafatı qazanmaq imkanı əldə edəcək.

İlk müsabiqədə qeydiyyat üçün 11760 nəfər müraciət edib, onlardan 9775 nəfər müsabiqəyə qəbul edilib.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 26 iyul 2019-cu il tarixində imzaladığı Sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

# Şair Ənvər Əhməd vəfat edib

***Azərbaycan Yazıçılar Birliyinin üzvü, Qarabağ Yazıçılar Birliyinin sədri, Azərbaycan Milli Yaradıcılıq Akademiyasının doktoru, professor, Xankəndi Pedaqoqi Universitetin keçmiş rektoru Ənvər Əhməd vəfat edib.***

"Unikal" xəbər verir ki, o, 78 yaşında dünyasını dəyişib.

Qeyd edək ki, Ənvər Əhməd (tam adı: Əhmədov Ənvər Misir oğlu) 8 avqust 1943-cü ildə Ağcabədi rayonu Salmanbəyli kəndində anadan olub. Ağcabədinin 5 saylı şəhər orta məktəbində orta təhsil alandan sonra Bakı Statistika Texnikumunu bitirib. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsilini davam etdirib. "M.Ə.Sabirin poetikası" mövzusunda dissertasiya müdafiə edib. AMEA Ədəbiyyat İnstitutunda doktorluq dissertasiyasını tamamlayıb.

"Dağ və mən" adlı ilk şeiri 1962-ci ildə "Ağcabədi pambıqçısı" qəzetində dərc olunub. Ağcabədi rayonunun Salmanbəyli kəndində mühasib köməkçisi işləyib. Sonra Ağcabədi rayon "Sürət" (indiki "Aran") qəzetində ədəbi işçi, müxbir, məktublar şöbəsinin müdiri, Xankəndi Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimi, sonra dosenti işləyib. Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa filialının direktoru (1994-2000), Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialının direktoru (2000-2002) olub. Sonuncu iş yeri Təhsil Naziriyi Təhsil Problemlər İnstitutunun şöbə müdiri vəzifəsi olub. Azərbaycan Yazıçılar Birliyinin Qarabağ filialının sədri seçilib (1991). Bədii tərcümə ilə ciddi məşğul olub.

# Bazar günü magistraturaya qəbul imtahanı keçiriləcək



***Dövlət İmtahan Mərkəzi (DİM) fevralın 20-də ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul imtahanı keçirəcək.***

DİM-dən "Unikal"a verilən xəbərə görə, magistratura səviyyəsinə qəbul imtahanı respublikanın 7 şəhər və rayonunda - Bakı, Sumqayıt, Abşeron, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəranda, ümumilikdə 71 imtahan binasında aparılacaq.

Bakalavrların imtahan verəcəyi yer onun "Şəxsi kabinet"ində qeyd etdiyi faktiki yaşadığı məntəqəyə uyğun müəyyən olunur.

İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

Bildiyiniz kimi, imtahanda bakalavrların xarici dil üzrə dinləyib-anlama bacarıqları da yoxlanılır. İmtahan dinləmə mətninin səsləndirilməsi ilə başlanacaq. Mətnin səsləndirilməsinə hazırlıq və binada sakitliyin təmin olunması ilə əlaqədar imtahanın başlanmasına 15 dəqiqə qalmış hər kəs zalda olmalıdır.

İmtahanın müddəti 3 saatdır. İmtahan başa çatdıqda və ya iştirakçı tərəfindən yekunlaşdırıldıqda cavab kartı ilə yanaşı, sual kitabçası da nəzarətçiyə təhvil verilir.

COVID-19 infeksiyası ilə əlaqədar ehtiyat tədbirləri çərçivəsində görülən işlərə uyğun olaraq kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək vacibdir.

İmtahan binasına mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək qadağandır. İştirakçılardan imtahan binasına əlavə əşyaları gətirməməyi xahiş edirik. Bütün bunlar buraxılış rejimi işinin səmərəli təşkilinə və onun vaxtında başa çatdırılmasına mane olur.

İmtahan binalarına yalnız tibbi maska ilə daxil olmağa icazə veriləcək və iştirakçıların məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılacaq, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunacaq. Bədən hərarəti 37 dərəcə və ya ondan yuxarı olan iştirakçılar imtahana buraxılmır. İmtahan zallarında bakalavrların bir-birindən lazımi uzaq məsafədə əyləşdirilməsi təmin olunacaq.

Məlumat üçün qeyd edək ki, ərizələrin qəbulu internet vasitəsilə fevralın 1?dən 10-dək aparılıb. İmtahanda iştirak etmək üçün 17097 bakalavr ərizə təqdim edib. Onlardan 15653 nəfəri Azərbaycan bölməsi, 1444 nəfəri rus bölməsi üzrə imtahan verəcək. Bakalavrlardan 10307-si cari ilin, 6790-ı isə əvvəlki illərin məzunlarıdır, 33 nəfər xarici ölkə vətəndaşıdır. Magistraturaya qəbul olmaq istəyən ən cavan bakalavr 2003-cü il, ən yaşlı bakalavr isə 1963?cü ildə anadan olub.

Qəbul imtahanı Bakıda 50, Sumqayıtda 5, Abşeronda 3, Gəncədə 6, Naxçıvanda 2, Mingəçevirdə 3, Lənkəranda 2 binada təşkil olunacaq. Bakıda 12307, Naxçıvanda 558, Gəncədə 1418, Sumqayıtda 1208, Abşeronda 698, Mingəçevirdə 574, Lənkəranda 334 bakalavrın imtahan verəcəyi gözlənilir. İmtahanın idarə olunmasına 271 imtahan rəhbəri və ümumi rəhbər, 1590 nəzarətçi-müəllim, 146 buraxılış rejimi əməkdaşı cəlb olunacaq.

Ərizə vermiş bakalavrlar imtahanda iştirak etmək üçün fevralın 14-dən etibarən DİM-in internet saytına daxil olub "Şəxsi kabinet"in istifadəçi adı və parolundan istifadə etməklə "İmtahana buraxılış vərəqəsi"ni çap edirlər. Burada iştirakçının imtahan verəcəyi şəhər, bina və digər məlumatlar qeyd olunur.

Bakalavrlar imtahana gələrkən aşağıda göstərilən sənədləri mütləq özləri ilə gətirməlidirlər:

- Şəxsiyyəti təsdiqləyən sənədin əslini;
- "İmtahana buraxılış vərəqəsi"ni.
- "İmtahan iştirakçısının sağlamlığı haqqında bəyannamə" (Bəyannamə DİM-in saytından "İmtahana buraxılış vərəqəsi" ilə bir yerdə çap olunur və bakalavr tərəfindən imzalanır. Bəyannaməni imtahan nəzarətçisinə təhvil vermək lazımdır).

Göstərilən sənədləri arasında uyğunsuzluq aşkarlanan, yaxud həmin sənədlərdən biri olmayan şəxslər imtahana buraxılmayacaq.

Hazırda imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri və mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binaları yoxlanılır, zallarda bakalavrların rahat imtahan verməsi üçün zəruri şərait yaradılır. Təhlükəsizliyin təmin edilməsi məqsədilə fevralın 19-da imtahan mərkəzləri, zallar, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə veriləcək.

# Qaradağlı faciəsindən 30 il ötür

***Qaradağlı faciəsinin ildönümüdür. "Unikal" xəbər verir ki, faciədən 30 il ötür.***

Xocavənd rayonunun Qaradağlı kəndi erməni işğalçılarına qarşı 4 il qəhrəmanlıqla mübarizə aparıb. Kənd 1992-ci il fevralın 17-də işğal edilərək yandırılıb, erməni işğalçıları dinc əhaliyə qarşı soyqırımı həyata keçirib. 30 il əvvəl burada törədilən qətliam, kənd sakinlərinə verilən işgəncələr 200 ilə yaxın müddətdə erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin davamı, Azərbaycan türklərinə bəslədikləri nifrətin nəticəsi idi.



Qaradağlı kəndi Xocavənd rayon mərkəzindən 13 kilometr qərbdə, Xocavənd-Xankəndi avtomobil yolunun kənarında, dağətəyi ərazidə yerləşir. 1988-ci ildə Dağlıq Qarabağda erməni separatçılarının baş qaldırdığı vaxt Xocavənd rayonunun Qaradağlı kəndinin də faciəli günləri başladı. Kəndin sakinləri böyüyüb boya-başa çatdıqları doğma yurdun hər qarışı, hər daşı uğrunda mübarizəyə qalxdı, onlarla kənd sakini ermənilərə qarşı qeyri-bərabər döyüşlərdə şəhid olub.

1990-cı il noyabrın 24-də 3 nəfər kənd sakini Xocavənd-Xankəndi yolunun 6-cı kilometrliyində erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilib. 1991-ci il yanvarın 9-da kəndə gələn UAZ markalı avtomaşın ermənilər tərəfindən atəşə tutulub, 1 nəfər öldürülüb, 4 nəfər yaralanıb. Onlardan 2-si sonralar aldığı yaralardan dünyasını dəyişib.

Ermənilər 1991-ci il martın 8-də kəndin yaxınlığında 2 nəfəri vəhşicəsinə qətlə yetiriblər. Həmin il iyunun 28-də kəndin yanındakı fermada 6 sakin - 3 kişi və 3 qadın diri-diri yandırılıb. 1991-ci il sentyabrın 8-də Ağdamdan Qaradağlıya gələn sərnişin avtobusu Xocavənd-Xankəndi yolunun 5-6-cı kilometrliyində erməni quldurları tərəfindən atəşə tutulub. Avtobusdakı 40 nəfərə yaxın sərnişindən 2 kişi, 6 qadın həlak olub. 1992-ci il yanvarın 8-də kəndin yaxınlığında daha bir azərbaycanlı vəhşicəsinə qətlə yetirilib, 100-ə yaxın qoyun ermənilər tərəfindən qənimət kimi aparılıb.

1991-ci il dekabrın 19-da Xocavənd kəndi, 1992-ci il fevralın 12-də isə Şuşanın Malıbəyli kəndi işğal edilərək yandırılıb. Növbəti hədəf Qaradağlı idi. Kənddə vəziyyət getdikcə çətinləşir, faciənin törədiləcəyi gün yaxınlaşırdı.

1992-ci il fevralın 14-də erməni quldurları xarici muzdluların, xüsusilə Xankəndidə yerləşən sovet ordusunun 366-cı alayının texnikasından və canlı qüvvəsindən istifadə etməklə əlaqəsi hər tərəfdən kəsilmiş, köməksiz qalan Qaradağlı kəndinə hücuma keçdilər. Kənddə olan 104 sakin və 14 əsgər sonuncu gülləyə qədər 4 gün düşmənlə mübarizə apardı. Döyüşlərdə biri qadın olmaqla, 14 nəfər həlak oldu. Silah-sursatı tükənən soydaşlarımız sonda ermənilər tərəfindən əsir götürüldülər və onların növbəti məşəqqətləri başlandı.

Kəndin Bəylik bağı adlanan ərazisində 23 sakin erməni cəlladları tərəfindən güllələndi, əksəriyyəti yaralı halda diri-diri silos quyusunda basdırıldı. Əsirlərin bir hissəsi Qaradağlı-Xankəndi yolu üzərində yerləşən erməni kəndlərində maşınlardan düşürülərək güllələndi. İki nəfər Zəki bulağında, 2 nəfər Cəmiyyət kəndində öldürüldü. Girovluqda olan 8 kənd sakinini ermənilər əzab və işgəncələr verərək amansızlıqla qətlə yetirdilər. Dörd nəfər müxtəlif vaxtlarda şəhid oldu. Beş nəfərin taleyi bu günə qədər məlum deyil.

Beləliklə, 1992-ci il fevralın 17-də Qaradağlı kəndi erməni silahlıları tərəfindən işğal olunaraq yandırıldı. İşğal zamanı 118 nəfər əsir götürülüb, 33 nəfər güllələnib. Erməni cəlladları öldürülənləri və yaralıları bir yerdə təsərrüfat quyusuna töküb, üzərini torpaqlayıblar. Ümumilikdə əsir götürülənlərdən 68 nəfəri öldürülüb, 50 nəfəri böyük çətinliklərlə əsirlikdən azad edilib. Əsir götürülənlərdən 10-u qadın, 2-si məktəbli olub. Azad olunanlardan 18 nəfəri aldıqları sağalmaz yaralardan sonralar vəfat edib. Əsirlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin çəkilməsi, ac-susuz saxlanmaları, döyülərək öldürülmələri insanlığa qarşı törədilmiş cinayət hadisəsi idi. Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi soyqırımı cinayəti nəticəsində Qaradağlı kəndində iki ailənin hər birindən 4 nəfər qətlə yetirilib, 43 ailə başçısını itirib, 146 uşaq yetim qalıb. Qaradağlı kəndində 91 nəfər, kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilib. İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələr və qəbiristanlıq dağıdılıb. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşüb.

Qaradağlı faciəsinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə "Soyqırımı: Qaradağlı", "Soyqırımı Qaradağlı: davam edir..." və "Qaradağlı, mübarizə" sənədli filmləri çəkilib, "Qaradağlı soyqırımı şahidlərin dili ilə" adlı kitab hazırlanıb. Bundan başqa, şəhidlərin xatirəsini əbədiləşdirmək üçün Yeni Qaradağlı, Yeni Xocavənd qəsəbələrində və Nərgiztəpə ərazisində abidə kompleksləri ucaldılıb.

# MİQ qaydalarındakı yeniliklər birmənalı qarşılanmadı



***Müəllimlərin işə qəbulu və yerdəyişməsi qaydalarında tətbiq edilən yeniliklər açıqlanıb. Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov ötən gün keçirdiyi brifinqdə dəyişikliklər barədə media nümayəndələrinə məlumat verib.***

O bildirib ki, növbəti tədris ili üzrə keçiriləcək işə qəbul müsabiqəsinin test imtahanı mərhələsində imtahan vaxtı 90 dəqiqədən 120 dəqiqəyə qədər artırılır. Bu mərhələdə 100 ballıq qiymətləndirmə tətbiq ediləcək.

Bundan əlavə, sualların sayı ötən illərdə olduğu kimi 60 olmaqla, ixtisas üzrə 40 sualın hər biri 2 balla, tədris metodikası və təlim strategiyaları üzrə 20 sualın hər biri isə 1 balla dəyərləndiriləcək. 4 səhv cavaba görə 1 düzgün cavab silinəcək.

Eşqi Bağırov, həmçinin qeyd edib ki, vakant yer seçmək imkanı əvvəlcə müəllimlərin işə qəbulu üzrə müsabiqənin minimum tələbini ödəyən şəhid ailəsi üzvlərinə veriləcək.

Müəllimlərin iş yerinin dəyişdirilməsi ilə bağlı yeniliklərə də toxunan şöbə müdiri deyib ki, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə yerdəyişmə yalnız müəllimlərin işə qəbulu müsabiqəsi vasitəsilə həyata keçiriləcək.

MİQ qaydalarındakı dəyişikliklər birmənalı qarşılanmayıb. Müəllim olmaq istəyən bəzi namizədlər və təhsil ekspertləri dəyişikliklərə qarşı çıxaraq, tətbiq olunacaq yenilikləri mənfi hal kimi qiymətləndirirlər.

Bu barədə Modern.az-a danışan təhsilin idarə edilməsi üzrə mütəxəssis Qoşqar Məhərrəmov bildirib ki, MİQ qaydalarındakı dəyişikliklərlə bağlı iki mənfi, eyni zamanda iki müsbət məqamı qeyd etmək olar.

Mütəxəssis hesab edir ki, imtahan müddətinin artırılması müsbət haldır: "Müəllimlər zamana qarşı savaşmamalıdır. Müəllimlərin təyinat yerində mütləq çalışması müsbət qərardır. Çünki bəzi zonalarda, xüsusilə kəndlərdə, qəsəbələrdə ibtidai siniflərdə hər il müəllim dəyişdirilməsindən əziyyət çəkirlər. Əgər hər il müəllim dəyişikliyi edilirsə, təbii olaraq onlar stress və adaptasiya problemi yaşayırlar".

Ekspertin sözlərinə görə, yeniliklərdə iki mənfi məqam diqqətdən yayınmır. Q.Məhərrəmov bununla bağlı fikirlərini belə izah edib: "Mənfi düşüncəm ondan ibarətdir ki, 4 səhv bir düzü aparmamalıdır. Bu ibtidai yanaşmadır. Düzgün və müasir yanaşma deyil. TOFEL, İELTS, Cambridgin imtahanlarının heç birində səhv düzü aparmır. Həyatda da insanların səhvi düzlərini aparmamalıdır. Mən şəxsən düşünürəm ki, səhv düzü aparmamalıdır. İnsanları başqa cür fərqləndirmək olar. Eyni balı toplayan insanları müsahibədə fərqləndirmək olar.

Eyni zamanda pedaqogikanın 20 bal, ixtisas fənlərinin 80 bal olması, əslində, pedaqogikanın ixtisas fənlərindən birə dörd əhəmiyyətsiz olması mənasına gəlir. Real həyatda isə belə deyil. Mən düşünürəm ki, aradakı fərq belə olmamalıdır. Əvvəl fərq birə iki nisbətində idi. Yəni pedaqogika ixtisas biliyindən iki qat daha az əhəmiyyətli idi. İndiki halda pedaqogikanın ixtisas biliyindən dörd dəfə az əhəmiyyətli olması heç də yaxşı hal deyil. Çünki müəllimlikdə ixtisas biliyi ilə yanaşı pedaqoji bilik də önəmlidir. İnanıram ki, sadaladığım mənfi məsələlər müsbətə doğru dəyişəcək. Çünki biz müasir ənənələri izləyirik və müasir ənənədə 4 səhvin bir düzü aparması yoxdur".

Qeyd edək ki, təhsil naziri Emin Əmrullayev "Facebook" hesabında MİQ qaydalarındakı dəyişiklikdən yazıb. Nazir vurğulayıb ki, müəllimlərin işə qəbulu və yerdəyişməsi ilə bağlı yeni qaydalar peşəkarlığın qiymətləndirilməsi və prosesin idarə edilməsində bir sıra üstünlüklər qazandırır.

"Xüsusilə şəhid ailəsi üzvü olan namizədlərə şamil olunacaq müddəalar onların rifahı və işlə təmin olunması baxımından xeyli asanlıqlar gətirir. Təhsil Nazirliyi olaraq təhsil iştirakçılarının maraqlarının həyata keçirilməsi, şəffaflıq və sağlam rəqabətlilik tətbiq olunmaqla keyfiyyətin artırılması istiqamətində işlərimizi davam etdiririk. İnanırıq ki, bu dəyişikliklər ümumi təhsil müəssisələrində müəllim seçiminin ədalətli aparılmasında xüsusi rol oynayacaq", - deyə təhsil naziri bildirib.

***Turqay Musayev***



# Vətən sevgisindən doğan qəhrəmanlıq

***Vətənin dar günündə dadına çatıb çəkinmədən canını onun azadlığına qurban verən mərd igidlərdən bir də Çərkəz Vidadi oğlu Teyyubludur. Bir ilahi sevgidən yaranan bu rəşadət, hünər Çərkəzə qərinələr boyu unudulmaz, günəşdən də parlaq ömür bəxş etdi. Fəqət böyük bir xalqın dilində Çərkəzin adı indi Vətənə, torpağa sədaqət rəmzi kimi çəkilir. Bu Vətən sevdalısı 24 yaşında qalmaqla elə neçə-neçə gələn nəsillər üçün də belə olacaqdır.***

Bəli, özünü biləndən bütün həyatını, istəyini xalqına, Vətəninə bağlayan Çərkəz doğulduğu Lerik rayonunun Züvüç kəndində orta təhsilini başa vurub ailəsi ilə birlikdə Bakı şəhərinə köçür. Burada xoş əməllərə dönüb ürəklərə yağa-yağa yaşadığı cəmiyyətdə hörmət sahibi olur. Bu sağlam əqidəli, vətənpərvər gənc Erməni tapdağında olan Azərbaycan torpaqlarının taleyini daha çox düşünür. Və həm də inanır ki, tezliklə bu torpaqlar erməni dığalardan təmizlənər, yenidən əhalinin azad, firavan həyatı başlanar. Belə bir istəklə Çərkəz 2014-cü ildə həqiqi xidmətə yollanır. Əlinə silah götürüb Murovda Vətən torpaqlarını göz-bəbəyi kimi qoruyur. Ürəyi bir qayda olaraq düşməndən qisas almaq eşqi ilə döyünür. Vətən sevgisi, torpaq məhəbbəti xidmət etdiyi hissədə hamıya nümunə göstərilir. Ləyaqətli övlad kimi əsgərliyi başa vurub üzüağ ailəsinə qayıdır.

Mənfur düşmənin əməlləri ilə barışmayan Çərkəz yenidən ordu sıralarında xidmətə başlayır. Ön xətdə doğma Vətəninə canını, qanını fəda etməyə hazır qeyrətli oğullarla yağı düşmənlə döyüş anını gözləyir. Kiçik çavuş rütbəsində top komandiri olur. Andına sadiq qalan Çərkəz 27 sentyabr müharibəsi başlanan andan düşmənə qarşı çıxır. Cəbrayıl, Hadrut, Füzuli ərazilərində mərdliklə vuruşur, bir-birindən çətin ölüm-dirim döyüş əməliyyatlarında yağıya qan qusdurur. Müharibənin ağır anlarında bacarıqlı, səriştəli bir hərbiçi kimi öndə olmaqla torpaq uğrunda gedən çox qanlı hadisələrin qəhrəmanı olur. 21 oktyabrda Füzulunun Gecəgözlü kəndində canını Vətənə qurban verməklə bir tarix yazır. Beləcə qanı bahasına torpağı Vətən etməklə bütün bir xalqın qəhrəmanlıq simvoluna çevrilir Çərkəz.

Dağlar diyarında dünyaya göz açan igid sevdalandığı Vətən adlı sevgilisinə əbədi qovuşmaq üçün onun torpağına Qaradağ rayonu, Şonqar qəsəbəsindəki Şəhidlər xiyabanında baş qoyur. Dövlət də öz Vətən sevdalı oğlunu ölümündən sonra "Vətən uğrunda", Füzulinin, Xocavəndin azad olmasına görə medallara layiq görür.

Çərkəzin adı, qəhrəmanlığı bir xalqın tarixinə əbədi yazıldığı üçün o, heç vaxt unudulmaz.

***Zəfər Orucoğlu, AJB üzvü***

# ASC suvarma mövsümünə hazırlaşır

***Qazaxda suvarma mövsümünə ciddi hazırlıq işləri görülür. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat Dilqəm Şərifov bildirib ki, Qazaxda suvarma mövsümünə hazırlıqla əlaqədar arx və kanallarda lildən və kolkosdan təmizləmə işləri aparılır.***

Bundan başqa İkinci Şıxlı kəndi əhalisinin 910 hektar pay torpaq və həyətyanı sahələrinin su təminatının yaxşılaşdırılması üçün İkinci Şıxlı 1-ci pillə nasos stansiyasında və örtülü suvarma şəbəkəsində təmir bərpa işləri artıq yekunlaşıb. Prezident İlham Əliyevin sərəncamına əsasən əhalinin su təminatını yaxşılaşdırmaq üçün 10 ədəd yeni subartezian quyusunun da qazılması nəzərdə tutulub.

Qazax Suvarma Sistemləri İdarəsi rayonun 18911 hektar kənd təsərrüfatı bitkiləri əkilmiş Pay torpaq və həyətyanı sahələrinin suvarma suyu ilə təmin edilməsinə xidmət edir. Bu sahələrin suvarılması üçün baş mənbədən Ağstafaçay,



Coğaz çay, İncəsu çay su anbarlarından, Kür və Xram çaylarından su götürülür. Qeyd olunan sahələrin 7100 hektar mexaniki üsulla yəni nasos stansiyaları, 1181 hektar isə öz axımı ilə açıq kanallar və arxlar vasitəsilə suvarılır. Ümumilikdə rayon ərazisində Suvarma Sistemləri İdarəsinin balansında 850,5 km uzunluğunda kanallar, arxlar boru kəmərləri və qapalı şəbəkələr mövcuddur, bundan 485,6 km açıq arx və kanallardır.

Qeyd edək ki, kanalların 67,3 km-i beton üzlüklü kanallardır. Ötən 5 il ərzində 1507 km uzunluğunda arx və kanallarda lildən və kol-kosdan təmizləmə işləri aparılıb. Rayon ərazisində hər il yeni əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə örtülü suvarma şəbəkələri çəkilərək istismara verilib.

Ümumillikdə rayon ərazisində 205 subartezian quyusu istismar olunur ki, nəticədə əhalinin suvarma və məişət-kommunal suyuna olan tələbatı ödənilir. Cari təmir işləri hesabına 55 ədəd hidrotexniki qurğularda, 40 ədədi hidrometrik postlarda,11ədəd nasos stansiyalarda, 4 ədəd mülki və istehsalat binalarında da təmir işləri aparılıb. Artıq 2022-ci ilin yaz vegetasiya suvarmasına hazırlıqla əlaqədar, arx və kanallarda, nasos stansiyalarında və örtülü suvarma şəbəkələrində cari təmir işləri il ərzində davam etdiriləcəkdir.

# Zelenski Avropa Parlamentinə dəvət olundu



***Ukrayna prezidenti Volodimir Zelenski Avropa Parlamentinin sessiyasında çıxış etmək üçün dəvət olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident Aparatının (OP) rəhbərinin müavini İqor Jovkva məlumat verib.

Jovkva bildirib ki, o, Avropa Parlamenti sədrinin kabinetinin rəhbəri Alessandro Çiokçetti ilə telefon danışığı aparıb, bu zaman tərəflər digər məsələlərlə yanaşı, Ukraynadakı vəziyyətlə bağlı Avropa Parlamentində dinləmələri müzakirə ediblər.

Prezident Aparatı rəhbərinin müavini dinləmələri vaxtında və vacib adlandırıb, həmçinin prezident Zelenskiyə onu Avropa Parlamentinin qarşıdan gələn plenar iclaslarından birində çıxış etməyə dəvət etdiyinə görə təşəkkür edib.

Bundan əvvəl məlum olub ki, Avropa Parlamenti Ukraynaya 1,2 milyard avro maliyyə yardımının ayrılmasını təsdiqləyib. Departamentdə qeyd edildiyi kimi, vəsaitlər Ukraynada makroiqtisadi sabitliyin dəstəklənməsi və fundamental islahatlar proqramının hazırlanması üçün istifadə olunacaq.

***Ağarza Elçinoğlu***

# "Bu bəyannamə Türkiyənin regionda rolunu artırır" - Köçəryan



***"Bu bəyannamə Türkiyənin regionda artan rolunu, Azərbaycanla müttəfiqlik, strateji münasibətlərin formalaşmasını təsbit edir".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın ikinci prezidenti Robert Köçəryan jurnalistlərlə görüşündə Azərbaycan və Türkiyə arasında qondarma "Şuşa Bəyannaməsi" ilə bağlı sualı cavablandırarkən deyib.

"Bəyannamədə Cənubi Qafqazda bizim xeyrimizə olmayan ciddi geosiyasi proseslərdən danışılır. Belə getsə, biz məhvə sürüklənəcəyik".

# İsrail Dəməşqə raket zərbəsi endirdi

***İsrail Suriyanın paytaxtı Dəməşqin cənubuna raket zərbəsi endirib.***

"Unikal" xəbər verir ki, bu barədə Suriyanın dövlət xəbər agentliyi "SANA" məlumat yayıb.

Hücum zamanı ölən və yaralananlarla bağlı məlumat verilməsə də, Dəməşqdə də partlayış səslərinin eşidildiyi bildirilib.

# Rusiya Xəzər dənizində təlimlərə başladı

***Rusiya 20-yə yaxın döyüş gəmisi ilə Xəzər dənizində təlimlərə başladığını açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilir ki, Xəzər dənizində keçirilən təlimdə 20-yə yaxın hərbi gəmi iştirak edir.

***Gülayə Mecid***

# İranda yaşayış binasında partlayış: Ölənlər var

***İranın paytaxtı Tehranda 3 mərtəbəli yaşayış binasında partlayış baş verib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, hadisə nəticəsində 9 nəfər ölüb, daha 9 nəfər isə yaralanıb.

Bildirilir ki, partlayışa səbəb qaz sızması olub. Hadisə yerinə çox sayda xilasedicilər cəlb olunub.

# Paşinyan Azərbaycanla saziş imzalamaq istəyir

***Ermənistanın baş naziri Nikol Paşinyan yeni nəqliyyat dəhlizlərinin qurulmasından danışıb. AzVision.az xəbər verir ki, o hökumətin iclasında çıxışı zamanı Ermənistanın Şimal-Cənub magistralının Sisian və Kacaran şəhərləri arasında yerləşən hissənin tikintisi üçün tender elanına dair də məlumat verib.***



Bu gün müsabiqənin kvalifikasiya mərhələsi elan edilib. Maraqlı layihə və tikinti şirkətləri prosesə dəvət olunur və onların arasından belə bir miqyasda işləri görə bilənlər seçiləcək. Baş nazir onu da vurğulayıb ki, SSRİ dağılandan sonra Ermənistanda belə həcmdə iş aparılmayıb və tikinti işlər yüz milyonlarla dollar tələb edəcək.

- Seçim 70 gün davam edəcək, bundan sonra seçilmiş şirkətlər əsas müsabiqədə iştirak edə biləcəklər. Hər şey edilməlidir ki, ilin sonuna qədər prosesi başa çatdıraq, - baş nazir bildirib.

O əlavə edib ki, yeni yol təkcə şimalla cənubu (yəni Ermənistanı İranla-red.) deyil, həm də qərblə şərqi (yəni Azərbaycan, Ermənistan, Naxçıvan və Türkiyə-red.) birləşdirməlidir.

Bununla bağlı Paşinyan xatırladıb ki, Ermənistan-Naxçıvan-Azərbaycan (Yerasx-Culfa-Meğri-Horadiz) dəmir yolunun Ermənistan hissələrinin yenidən qurulması üzrə də layihələndirmə işləri aparılır.

Ərazi idarəetmə naziri Qnel Sanosyan isə deyib ki, Sisian-Kacaran yolu 6 il müddətinə tikiləcək. Bunun üçün ümumi uzunluğu 4,7 km olan 27 körpünün salınması və 12 km uzunluğunda 5 tunelin qazılması tələb olunur. Onardan biri 8, 6 km olacaq. Yeni yol İran sərhədindən Ermənistanın dərinliklərinə qədər gediş vaxtını təxminən iki saat azaltmağa kömək edəcək. İndi kommunikasiyaların açılması ilə bağlı aparılan danışıqlar nəzərə alınaraq, magistral yola şərq və qərb tərəfdən giriş yolları da layihələndiriləcək. Layihənin əsas kreditoru Asiya İnkişaf Bankı olacaq.

Baş nazir onu da vurğulayıb ki, Ermənistan yaxın vaxtlarda Azərbaycanla Arazdəyən-Culfa-Ordubad-Mehri-Horadiz dəmir yolunun tikintisinə başlamağa imkan verəcək hüquqi sənəd imzalamağa ümid edir.

- Hazırda biz Arazdəyən-Culfa-Ordubad-Mehri-Horadiz dəmir yolunun Ermənistandan keçən hissəsinin tikintisi ilə bağlı konkret işlər görürük. Artıq texniki işlərə başlanılıb. Ümid edirik ki, əldə olunmuş razılaşmalar yaxın gələcəkdə sənəd şəklində öz əksini tapacaq və proses tam inkişaf edəcək. Əlbəttə, siyasi razılaşmalar olarsa, Şimal-Cənub yolu da Azərbaycan, Ermənistan və Türkiyəni birləşdirə bilər., - hökumət başçısı bildirib.

# "Müharibə"nin yeni vaxtı elan olundu

## "Politico": "16 fevral tarixi diqqəti yayındırmaq üçün ortaya atılmışdı"

***Amerikanın məşhur "Politico" qəzetində Rusiya-Ukrayna münaqişəsinə dair yeni maraqlı təhlil dərc edilib. AzVision.az xəbər verir ki, nəşr Moskvanın müharibəyə başlayacağı ehtimal edilən yeni tarixi açıqlayıb.***



Məqalə müəllifi analitiklərin şərhlərinə istinadla iddia edir ki, guya Rusiya Ukraynaya fevralın 20-dən sonra hücuma başlaya bilər. Müharibənin başlanma tarixinin əvvəlcədən fevralın 16-da olacağını deməklə isə diqqət əsas tarixdən - 20 fevraldan bilərəkdən yayındırılıbmış.

- Rusiyanın fevralın 16-da Ukraynaya müdaxiləsi perspektivi həmişə çox yüksək qiymətləndirilib. Həqiqətən də diqqət yetirməyə dəyəcək qrafik isə 20 fevraldan sonra baş verənlər olacaq... Analitiklər bizə 16 fevral xəbərlərinin real müharibə tarixindən diqqəti yayındırdığını bildiriblər,- qəzet yazıb.

"Böyük sövdələşmə"nin qurbanı olduq"- Ukraynanın keçmiş iqtisadiyyat naziriMüəllif fevralın 20-dən sonrakı dövrün xüsusi diqqət çəkəcəyini iddia edərək qeyd edib ki, o zaman "soyuq müharibədən bəri ən böyük hərbi təlimlərin yekunlaşacağı gözlənilir. Hansı ki, Rusiya və Belarus liderləri qoşunlarının (rus qoşunları - red.) vətənə qayıdacağına söz veriblər".

Analitiklər qəzetə onu bildiriblər ki, fevralın 20-dən sonra Rusiya hərbi qüvvələrinin davranışları Moskvanın əsl niyyətini anlamağa kömək edəcək.

Nəşr yazır ki, bu tarixə xüsusi diqqət yetirmək üçün başqa ciddi səbəblər də var. Çünki Ukrayna prezidenti Vladimir Zelenskinin, ABŞ vitse-prezidenti Kamala Harris və ABŞ dövlət katibi Entoni Blinkenin iştirak edəcəyi Münhen Təhlükəsizlik Konfransı məhz həmin gün başa çatacaq.

Maraq üçün qeyd edək ki, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov "Politico"nun bundan öncə 16 fevralla bağlı proqnozunu şərh edərkən demişdi ki, bu cür məqalələri ciddi qəbul etmək olmur.

Qeyd edək ki, son aylar Qərb Rusiyanı Ukrayna ətrafında vəziyyəti gərginləşdirməkdə ittiham edir. Kreml və Rusiya Xarici İşlər Nazirliyi isə bütün ittihamları rədd edərək, Moskvanın Minsk razılaşmalarına əməl etməkdən imtina edən Kiyevdən fərqli olaraq, Ukraynaya aid münaqişədə iştirak etmədiyini və heç bir razılaşmanı pozmadığını vurğulayır.

NATO ölkələrinin ehtiyat etdiyi 100 mindən çox rus hərbçinin sərhədə toplanmasından, genişmiqyaslı təlimlərdən sonra qoşunların tədricən dislokasiya yerlərinə qayıtmasına baxmayaraq, hələ də Qərbdən Rusiyanın təxribatlar hazırladığına dair iddialar gəlməkdə davam edir.

Bazar ertəsi prezident Vladimir Putin xarici işlər naziri Sergey Lavrov və müdafiə naziri Sergey Şoyqu ilə görüşü zamanı da bu istiqamətdə konkret fikirlər səslədirildi. Müdafiə Naziri Putinlə görüşdə "təlimlərin bəzilərinin başa çatmaq üzrə olduğunu, bəzilərinin isə yaxın vaxtlarda yekunlaşacağını" bildirib. Müdafiə Nazirliyinin sözçüsü general-mayor İqor Konaşenkov isə çərşənbə axşamı jurnalistlərə bildirib ki, Cənub və Qərb hərbi dairələri qoşunları öz yerləşdirmə yerlərinə qaytarmağa başlayıb.

***Tural Tağıyev***

# Qurban Qurbanovun inamı...



***"Marsel" bu mövsüm "Qarabağ"ın qarşılaşdığı ən güclü rəqib olacaq. Komanda hazırda Fransa Liqasında PSJ-dən sonra 2-ci yeri tutur.***

Heyətində çox güclü oyunçuları var. Çengiz Ünder (Türkiyə millisi), Arkadiuş Milik (Polşa), Dimitri Payet (Fransa), Bubakar Kamara, bugünlərdə Seneqal millisinin heyətində Afrika çempionu olmuş Pape Qeye, Bamba Dienq və sair. Oyunun favoriti "Marsel" olsa da, mənə elə gəlir ki, matçın taleyi Fransada deyil, Bakıdakı cavab oyununda həll olunacaq.

### Qurban Qurbanovun qətiyyətli açıqlaması

Azərbaycan komandası indi tarixinin ən yaxşı dönəmini keçirir, oyundan oyuna inkişafa doğru gedir. Məlumdur ki, "Qarabağ" ilk dəfədir qrup səddini keçib. Qrupun oyunları dekabrda bitib, pley-off fevralda başlayır. Bu o deməkdir ki, rəqibi daha dərindən öyrənmək, təhlil etmək, matça yaxşı hazırlaşmaq baxımından baş məşqçi Qurban Qurbanovun 2 aylıq uzun bir vaxtı olub. İlk dəfədir ki, bir Azərbaycan klubunun avrokubokdakı matça hazırlığı üçün belə uzun zaman yaranıb. Ona görə də düşünürəm ki, hətta 1 qollu minimal hesablı məğlubiyyət belə, "Qarabağ" üçün pis nəticə sayılmamalıdır (heç-heçə və qələbə isə əsl sensasiya olar). Çünki cavab görüşü Bakıda olacaq və güclü azarkeş dəstəyi ilə də rəqibi keçmək mümkündür. Əsas odur ki, "Bazel"lə İsveçrədəki görüşdəki kimi nəticəyə təsir göstərən, böyük hesablı yenilgiyə gətirib çıxaran hakim səhvi olmasın...

Xoş məqam odur ki, rəqibin gücü, Fransada mümkün erməni təxribatının olacağına dair versiyalar komandanın fikrini oyuna kökləməkdən yayındıra bilməyib. Belə məsuliyyətli matçlar öncəsi bu, böyük psixoloji üstünlükdür. Qurban Qurbanovun dünənki mətbuat konfransında "komandama güvənirəm, istəkliyik" kimi inamlı, qətiyyətli açıqlaması da komandada ruh yüksəkliyindən xəbər verir.

Daha bir xüsusi məqama diqqət çəkmək istəyirəm. Neçə vaxtdır "Marsel"də futbolçularla baş məşqçi Xorxe Sampoeli arasında münasibətlər kəskinləşib, komanda daxilində gərginlik indi də davam edir. "Qarabağ"da isə əksinə həmişəki kimi güclü birlik var. Bu, "Qarabağ"ın lehinə işləyən faktordur.

Sonda bir narahatlığımı da qeyd edim. "Qarabağ"da Şahruddin Məhəmmədliyevin zədə səbəbindən oynamaması komandaya təsirini göstərə bilər. Güman ki, bu gün əsas qapıçı kimi meydana gürcüstanlı yeni transfer Luka Quqeşaşvili çıxacaq. Antalyada olarkən Lukanın oyunlarını izləmişdim. Yaxşı seyvləri olsa da, az səhvlər də etmədi. Bu, "Qarabağ"a yeni qoşulması, tam adaptasiya olmaması ilə də bağlı ola bilərdi. İnanmaq istərdim ki, narahatlığım əbəs olacaq və Luka ən yaxşı oyunlarından birini keçirəcək.

Amma daha yaxşı olardı ki, hər iki oyunda onun əlinə ümumiyyətlə, top dəyməsin...

*Anar Bağırov*

# Rüstəm Orucov koronavirusa yoluxdu

***Azərbaycanın kişilərdən ibarət milli yığma komandanın heyəti fevralın 15-i İsrailin paytaxtı Tel-Əviv şəhərində keçiriləcək "Böyük Dəbilqə" turnirində iştirak etmək üçün adıçəkilən ölkəyə yola düşüblər.***



Qol.az xəbər verir ki, səfərdən öncə Beynəlxalq Cüdo Federasiyasının (BCF) müəyyən etdiyi protokola uyğun olaraq, heyət üzvlərinin hamısından PCR testi götürülüb. Turnirdə iştirakı planlaşdırılan idmançımız Elcan Hacıyevdə testin nəticəsi pozitiv çıxdığı üçün onun adı heyət üzvlərinin siyahısından çıxarılıb. Digər idmançılarımızda testin nəticəsi neqativ olduğu üçün müvafiq sənədlər BCF-in elektron qeydiyyat sistemi üzərindən təşkilatçılara göndərilib və bütün müvafiq prosedurlar yerinə yetirildikdən sonra heyət üzvləri İsrailə yola düşüblər.

BCF-in qaydalarına əsasən, iştirakçılar yarışın keçiriləcəyi yerə çatdıqdan sonra daha bir dəfə test verməlidirlər. Azərbaycan milli yığmasının üzvləri dünən Tel-Əviv şəhərinə çatdıqdan sonra onlardan bütün digər ölkələrin nümayəndələrindən olduğu kimi, yenidən PCR testi götürülüb. Təəssüf ki, Bakıda PCR testi nəticəsi neqativ çıxan iki idmançımız, Rüstəm Orucov və Murad Fətiyevdə bu dəfə testin nəticəsi pozitiv çıxıb.

BCF-in qaydalarına əsasən, pozitiv PCR nəticəsi olan heyət üzvləri yarışlara buraxılmır və ayrıca otaqlarda təcrid edilirlər. Qeyd edək ki, hazırda pozitiv PCR nəticəsi olan milli komanda üzvləri İsrail Dövlətinin qaydalarına əsasən 5 günlük karantinə alınıblar.

Heyət üzvlərimiz özlərini yaxşı hiss edirlər, sağlamlıqlarında ciddi məsələ yoxdur və daimi həkim nəzarəti altındadırlar. Azərbaycan Cüdo Federasiyası idmançılarımızın müalicəsi üçün bütün lazımi tədbirləri həyata keçirir.

# "Real" Ançelottini göndərəcək - PSJ-ni keçməsə



***"Real" baş məşqçisi Karlo Ançelottini istefaya göndərə bilər.***

İspaniya klubu Çempionlar Liqasında 1/8 final səddini adlaya bilməsə, çalışdırıcı ilə vidalaşacaq. PSJ ilə səfərdəki ilk oyunda 0:1 hesabı ilə uduzan madridlilər artıq Ançelottiyə əvəzləyici də tapıb. İtaliyalı postundan qovulsa, onu Maurisio Poçettino əvəzləməlidir.

PSJ-nin argentinalı baş məşqçisi təkcə "Real" deyil, "Mançester Yunayted"in də hədəfindədir. 49 yaşlı mütəxəssis 2021-ci ilin yanvarında Paris təmsilçisinin baş məşqçisi təyin olunub.

# "Qarabağ"ın 25-ci səfəri: 2/3-də məğlubiyyət

***"Qarabağ" avrokubokların əsas mərhələlərində 25-ci səfər matçına çıxacaq.***

Apasport.az saytının məlumatına görə, bu yubiley Konfrans Liqasının pley-off mərhələsinin "Marsel"lə ilk matçına təsadüf edəcək.

Qurban Qurbanovun yetirmələri indiyədək 8 dəfə qatıldığı qrup mərhələlərində 24 dəfə rəqib meydanında oynayıb. Təəssüf ki, təmsilçimiz bu görüşlərin 2/3-də uduzub.

Cəmi 6 qələbəsi olan ağdamlılar səfər qarşılaşmalarının 25 faizində qalib gəlib. Digər iki oyun heç-heçə bitib. Aktivində 19 qol olan təmsilçimiz Marseldə yubiley - 20-ci topu vurmağa çalışacaq. Ağdamlılar nə az, nə çox - 44 qol buraxıb.

Əgər təkcə əsas deyil, təsnifat mərhələlərini də saysaq, "Qarabağ" səfərdə 69 matç keçirib. Yubiley - 70-ci görüş "Velodrom"da baş tutacaq.

Rəqib meydanlardakı qələbələrin sayı ümumi oyunların 1/3-nə bərabərdir - 23 dəfə. 16 sülhü olan "Qarabağ" 30 dəfə səfərdən başıaşağı dönüb. Rəqib meydanlarda orta məhsuldarlığı 1-dən aşağı olan təmsilçimiz 65 qol vurub və 103-nü buraxıb.

# Mahir Emrelinin sabiq baş məşqçisi "Qarabağ"ın oyunu üçün Fransada

***"Qarabağ"ın Konfrans Liqasının pley-off mərhələsində "Marsel"lə ilk oyunu seleksiyaçıların və məşqçilərin də diqqət mərkəzindədir.***

Apasport.az saytının məlumatına görə, qarşılaşmaya azarkeş marağı az olsa da, futbolçuları izləmək üçün bir çox ölkədən Fransaya mütəxəssis yollanıb.

Ancaq məqsəd "Qarabağ"ın yox, "Marsel"in oyunçularını seyr etməkdir. "Velodrom" stadionundakı görüşə tribunadan tamaşa edəcək məşqçilərdən biri də Polşa millisinin çalışdırıcısı Çeslav Mixneviçdir. Cari mövsümün əvvəlində "Legiya"da millimizin hücumçusu Mahir Emreliyə rəhbərlik edən 52 yaşlı məşqçinin məqsədi Arkadiuş Milikin nə durumda olduğunu görməkdir.

İngiltərədə bir neçə polşalı oyunçunun çıxışına tamaşa edən Mixneviç bu dəfə "Marsel"in forvardı üçün Fransaya gedib. Mixneviçin bundan sonrakı dayanacağı isə İspaniya və Türkiyə olacaq.

Qeyd edək ki, bu gün keçiriləcək "Marsel" - "Qarabağ" oyunu Bakı vaxtı ilə saat 00:00-da başlayacaq.

# Emil Balayev bu klubun maraq dairəsinə düşdü

***Millimizin və "Qarabağ"ın qapıçısı Emil Balayevlə Qazaxıstanın "Turan" klubunun maraq dairəsinə düşüb.***

Qol.az "meta-ratings.kz" saytına istinadən xəbər verir ki, ölkənin Premyer Liqa təmsilçisi "Turan" millimizin qolkiperi ilə maraqlanır. Klubun artıq 27 yaşlı qapıçı ilə danışıqlara başladığı bildirilib.

Məlumata görə, 2021-ci ilin dekabrında Qazaxıstanın başqa bir klubu "Aktobe" Balayevi heyətinə cəlb etmək istəyib. Amma həmin vaxt əsas qapıçısı Şahruddin Məhəmmədəliyev zədələndiyindən "Qarabağ" Emili buraxmayıb. Sayt iddia edib ki, bir ay sonra isə Ağdam klubu Emillə yolları ayırmağı mümkün sayıb.Bu zaman Balayevlə "Turan" da maraqlanıb.

Bildirilir ki, onun komandaya keçidi baş məşqçisi Vladimir Qazzayev dəvəti əsasında baş tuta bilər. Emil 2019-cu ildə məhz Qazzayevin rəhbərliyi altında "Tobol"da çıxış edib.